# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Azadlığa qovuşan Qubadlının Şəhər Günü




8

SƏS
№ 196 (7364)
25 oktyabr 2025-ci il.
Qiyməti 60 qəpik

## Azərbaycan və Rusiya prezidentləri arasında telefon danışığı olub



2

# Bölgə üçün yeni inkişaf şansı

Rusiyalı ekspert: nəqliyyat və ticarət yollarının açılması bütün region ölkələri üçün faydalıdır




5

### Şagirdlərin dərsə marağının azalmasına səbəb NƏDİR ?



6

## Növbəti köç karvanı Xocalıda



12

### Toylarda verilən daha riskli qidalar BƏLLİ OLDU



16

## Mütaliəni vərdişə necə çevirməli?



15

## Maaşlar niyə gec verilir?



9

# Azərbaycan-Qazaxıstan:
## ortaq maraqlar və qarşılıqlı fəaliyyət

### Prezident İlham Əliyev: "Biz həqiqi strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri qurmuşuq"



Azərbaycanla Qazaxıstan arasında münasibətlərin əsasını tarixi, mədəni və dini ortaqlıqlar, o cümlədən ənənəvi dostluq və qardaşlıq əlaqələri təşkil edir. Ali səviyyədə təşəkkül tapmış qarşılıqlı hörmət və etimada əsaslanan fəal siyasi dialoq iki ölkə arasında bütün sahələrdə yaxın işbirliyini şərtləndirən və ciddi nailiyyətlərin əldə olunmasını təşviq edən aparıcı faktor kimi çıxış etməkdədir. Azərbaycan ilə Qazaxıstan arasında siyasi əlaqələr bu gün yüksək qarşılıqlı etimad ilə xarakterizə olunur. Dövlət başçılarının qarşılıqlı səfərləri əlaqələrin dərinləşməsində öz sözünü deyir. Növbəti belə yüksəksəviyyəli səfər oktyabrın 20-21-də baş tutub. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə Azərbaycan Prezidenti İlham Əliyev Astanaya rəsmi dövlət səfəri olub. Səfər ərəfəsində Prezident İlham Əliyev "Kazinform"a eksklüziv müsahibəsində iki ölkə arasında siyasi dialoqun yüksək səviyyəsindən, nəqliyyat, logistika, neft-qaz sahələrində əməkdaşlığın sürətli inkişafından, həmçinin yaşıl enerji sahəsində birgə işin perspektivlərindən və Türk Dövlətləri Təşkilatı çərçivəsində təşəbbüslərdən bəhs edib. "Azərbaycan ilə Qazaxıstan arasında siyasi əlaqələr hazırda yüksək dərəcədə möhkəmlik və qarşılıqlı etimad ilə xarakterizə olunur", - deyən Azərbaycan Prezidenti qeyd edib ki, ötən onilliklər ərzində xalqlarımız arasında tarixi qardaşlığa, dostluğa və qarşılıqlı dəstəyə, ortaq türk kimliyinin möhkəm təməlinə, oxşar mədəni ənənələrə və mənəvi dəyərlərə əsaslanaraq, biz həqiqi strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri qurmuşuq.

#### "QAZAXISTANA HƏR SƏFƏRİMDƏ DİNAMİK İNKİŞAFI, YENİ UĞURLARI MÜŞAHİDƏ ETMƏK MƏNİM ÜÇÜN XOŞDUR"

Son üç ildə Azərbaycan Prezidentinin qardaş ölkəyə yeddinci səfəridir. "Qazaxıstana hər səfərimdə dinamik inkişafı, yeni uğurları müşahidə etmək mənim üçün xoşdur. Bu nailiyyətlər Prezident Kasım-Jomart Tokayevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü və düşünülmüş dövlət siyasətindən xəbər verir. Ölkənin modernləşdirilməsinə və iqtisadiyyatın şaxələndirilməsinə yönəlmiş islahatların uğurla həyata keçirilməsi xüsusi təsir bağışlayır. Bu uğurlar münasibətilə bütün qardaş Qazaxıstan xalqını təbrik etmək istərdim. Həmin müddət ərzində Prezident Kasım-Jomart Kemeleviç Tokayev Azərbaycana altı dəfə səfər edib. Bütün bunlar ölkələrimiz arasında hərtərəfli tərəfdaşlıq və qarşılıqlı strateji fəaliyyətin inkişafına müştərək səylərimizi nümayiş etdirir. Bundan əlavə, müntəzəm təmaslar bizə gündəlikdə duran aktual məsələləri operativ şəkildə həll etməyə və əməkdaşlığın əsas istiqamətləri üzrə razılaşdırılmış mövqeləri müəyyənləşdirməyə imkan verir", - deyə dövlətimizin başçısı bildirib.

Ötən onilliklər ərzində tarixi qardaşlığa, dostluğa və qarşılıqlı dəstəyə, ortaq türk kimliyinin möhkəm təməlinə, oxşar mədəni ənənələrə və mənəvi dəyərlərə əsaslanaraq, strateji və müttəfiqlik tərəfdaşlıq qurulub. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, "İkitərəfli əməkdaşlığın möhkəmlənməsinə töhfə verən mühüm amil kimi fəal və konstruktiv dialoqu qeyd etmək istərdim. Çünki bu fəaliyyətlər yüksək səviyyədə baş verir və dövlətlərarası münasibətlərin bütün səviyyələrdə hərtərəfli dərinləşməsinə təkan verir". Ötən illər ərzində iki ölkə möhkəm hüquqi baza - 170-ə yaxın sənəd hazırlayıb, siyasi, ticari-iqtisadi, investisiya, mədəni-humanitar və digər sahələrdə səmərəli əməkdaşlıq mexanizmləri yaradıb. Bu sənədlər arasında "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında dostluq münasibətləri və strateji tərəfdaşlıq haqqında Bəyannamə" (2004-cü il 1 mart, Astana), "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında Müqavilə" (2005-ci il 24 may, Bakı), "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında strateji münasibətlərin möhkəmləndirilməsi və müttəfiqlik qarşılıqlı fəaliyyətinin dərinləşdirilməsi haqqında Bəyannamə" (2022-ci il 24 avqust, Bakı) xüsusi vurğulanmalıdır. Regionda yaranmış yeni reallıqlar çərçivəsində nəqliyyat-kommunikasiya xətlərinin açılması istiqamətində aparılan işlər və post-münaqişə dövrünün reallığı olan Zəngəzur dəhlizi Mərkəzi Asiya regionu, o cümlədən Qazaxıstan üçün də yeni fürsətlər yaradır. Ölkələrimizin maraqları bu məsələdə də üst-üstə düşür.

Qazaxıstanın regionda sülhün, təhlükəsizliyin və iqtisadi əməkdaşlığın təşviq edilməsinə yönəlmiş fəaliyyəti, habelə Asiyada təhlükəsizliyin möhkəmlənməsi sahəsində "Asiyada Qarşılıqlı Əməkdaşlıq və Etimad Tədbirləri üzrə Müşavirə"nin yaradılması ilə bağlı təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən biri Azərbaycan olub.

Bütün bunlar onu deməyə əsas verir ki, ortaq soykök və tarixi-mədəni əlaqələrə malik ölkələrimiz arasındakı münasibətlər bundan sonra da hər iki xalqın və dövlətin maraqlarına uyğun inkişaf edəcək və genişlənəcəkdir.

#### "AZƏRBAYCAN İLƏ QAZAXISTAN ARASINDA İQTİSADİ-TİCARİ ƏMƏKDAŞLIĞIN SPEKTRİ ÇOX GENİŞDİR"

İqtisadiyyat, ticarət, investisiyalar, enerji təhlükəsizliyi, nəqliyyat və kommunikasiyalar istiqamətləri üzrə ikitərəfli tərəfdaşlıqla yanaşı, regional və beynəlxalq platformalarda, xüsusilə Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlıq böyük potensial və geniş perspektivlərə malikdir. Azərbaycanın sıx, tarixi əlaqələrə malik olduğu Türk dövlətlərindən biri də Qazaxıstandır. Azərbaycan və Qazaxıstan prezidentlərinin son illər qarşılıqlı yüksək səviyyəli səfərləri ikitərəfli münasibətlərə müsbət təsirini göstərib. "Azərbaycan ilə Qazaxıstan arasında iqtisadi-ticari əməkdaşlığın spektri çox genişdir. İqtisadi-ticari qarşılıqlı fəaliyyətin davamlı artımını məmnunluqla qeyd edirik, - deyən Azərbaycan Prezidenti bildirib ki, hər iki ölkə ardıcıl olaraq birgə təşəbbüslər həyata keçirir, iqtisadiyyatın müxtəlif sektorlarında əməkdaşlığı genişləndirir: "Bu proses məqsədyönlü dövlət siyasəti, biznes icmalarının nümayəndələri arasında fəal dialoq, qarşılıqlı faydalı və tərəfdaşlıq münasibətlərinin inkişafına ümumi sadiqlik sayəsində mümkün olub". Bu günə qədər ölkədə Qazaxıstan kapitalı ilə 250-yə yaxın kommersiya strukturu qeydə alınıb. Qarşılıqlı ticarətdə də müsbət dinamika özünü aydın şəkildə göstərir. 2024-cü ildə iki ölkə arasında əmtəə dövriyyəsinin həcmi 470 milyon dollar təşkil edib. 2025-ci ilin yanvar-avqust aylarında isə ötən ilin müvafiq dövrü ilə müqayisədə üç dəfə çox olmaqla, 547 milyon dollara çatıb. Bu artım Orta Dəhlizin potensialından səmərəli istifadə, nəqliyyat və logistika infrastrukturunun sistemli modernləşdirilməsi ilə bağlıdır.

İki ölkə arasında münasibətlər sırf diplomatik çərçivəni aşaraq türk birliyi ideyasına, qarşılıqlı etimada və dərin inteqrasiyaya söykənən çoxşaxəli strateji tərəfdaşlıq səviyyəsinə çatıb. Türk Dövlətləri Təşkilatı (TDT) Azərbaycan ilə Qazaxıstan arasında qardaşlıq əlaqələrinin möhkəmləndirilməsində aparıcı rola malikdir, siyasi dialoqun dərinləşdirilməsi, iqtisadi əlaqələrin genişləndirilməsi və humanitar əməkdaşlığın inkişafı üçün hərəkətverici platforma rolunu oynayır. Türkdilli ölkələrin vahid platformada birləşməsi ölkələr arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın yüksələn xətlə inkişafına təkandır. Müasir dünyada türkdilli dövlətlər arasında qurulan əməkdaşlıq daha aydın görünür. Bu münasibətlərin güclənmiş və yeni, daha düşünülmüş, praqmatik mərhələsinə start verilib. Türkdilli ölkələrin siyasi fəallığı dünya siyasətinin gündəliyinin müəyyən edilməsinə getdikcə daha çox təsir göstərməsi əlbəttə ki, türkdilli ölkələr arasında hərtərəfli əməkdaşlığın genişləndirilməsi mühüm rol oynayır. Türkdilli dövlətlər arasında səmərəli, etibarlı siyasi dialoq qurulub, bütün sahələrdə hərtərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində tədbirlər həyata keçirilir.

#### TÜRK ELMİNİN, MƏDƏNİYYƏTİNİN, BİRLİYİNİN İNKİŞAFINDA MÜHÜM MƏRHƏLƏ

Türkdilli ölkələrin vahid platformada birləşməsi ölkələr arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın yüksələn xətlə inkişafına təkandır. Azərbaycan Prezidentinin vurğuladığı kimi, Türk Dövlətləri Təşkilatı (TDT) Azərbaycan ilə Qazaxıstan arasında qardaşlıq əlaqələrinin möhkəmləndirilməsində aparıcı rola malikdir, siyasi dialoqun dərinləşdirilməsi, iqtisadi əlaqələrin genişləndirilməsi və humanitar əməkdaşlığın inkişafı üçün hərəkətverici platforma rolunu oynayır. 2009-cu ildə qədim Azərbaycan torpağı Naxçıvanda yaradılan Türk Dövlətləri Təşkilatı türk xalqları və ölkələri arasında əməkdaşlığın və həmrəyliyin möhkəmlənməsinə mühüm töhfələr verib. Keçən il Şuşada ilk qeyri-rəsmi Zirvə Görüşü, daha sonra Qəbələdə TDT Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşünün keçirilməsi ölkələr arasında münasibətlərin yüksək səviyyədə olduğunun göstəricisidir: " Türk Dövlətləri Təşkilatının möhkəmlənməsinə, Türk dünyasının daha sıx birliyinə, onun siyasi, iqtisadi və hərbi gücünün artırılmasına, qlobal arenada güc mərkəzinə çevrilməsinə töhfə verən bəyannamələr imzalanıb. TDT çərçivəsində ölkələrimiz arasında mədəniyyət, humanitar və təhsil sahələrində əməkdaşlıq sistemli və ardıcıl xarakter daşıyır.

Biz TÜRKSOY, Türk Mədəniyyəti və İrsi Fondu, Türk Dövlətləri Parlament Assambleyası (TÜRKPA) və digər beynəlxalq təşkilatlar çərçivəsində də sıx əməkdaşlıq edirik. Bu, Azərbaycan ilə Qazaxıstan arasında etimadın yüksək səviyyəsinin daha bir göstəricisidir. 1926-cı ildə Bakıda keçirilmiş Birinci Türkoloji Qurultayın tarixi əhəmiyyətini ayrıca qeyd etmək istərdim. Bu hadisə türk elminin, mədəniyyətinin, birliyinin inkişafında mühüm mərhələ oldu. Gələn il bu əlamətdar Forumun keçirilməsinin 100 illiyi tamam olur və Birinci Türkoloji Qurultayın ildönümünün TDT çərçivəsində təntənəli şəkildə qeyd edilməsi planlaşdırılır" - deyə Prezident bildirib.

İki ölkə arasında formalaşmış qarşılıqlı etimad, siyasi iradə və strateji baxış ən uğurlu tərəfdaşlıq nümunələrindən biridir. Bu əməkdaşlıq təkcə iki dövlətin deyil, eləcə də regionun sabitliyi, təhlükəsizliyi və inkişafı üçün mühüm əhəmiyyətə malikdir.

***Nəzakət Ələddinqızı***



## Azərbaycan və Rusiya prezidentləri arasında telefon danışığı olub

Oktyabrın 24-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Azərbaycan və Rusiya prezidentləri Düşənbədə MDB Dövlət Başçıları Şurasının iclası çərçivəsində oktyabrın 9-da keçirdikləri görüşün davamı olaraq ikitərəfli gündəliyin bir sıra aktual məsələlərini müzakirə ediblər.

Dövlət başçıları iqtisadi-ticari əlaqələrin daha da inkişaf etdirilməsinə, həmçinin enerji və nəqliyyat-logistika sahələrində birgə layihələrin həyata keçirilməsinə qarşılıqlı maraqlarını təsdiqləyiblər. Telefon söhbəti zamanı regional əməkdaşlığın bəzi aspektlərinə və beynəlxalq vəziyyətə toxunulub. Müxtəlif səviyyələrdə təmasların davam etdirilməsi barədə razılıq əldə olunub.

# Xalqına əvvəl torpağını, sonra övladını qaytaran LİDER

**Prezident İlham Əliyev: 30 il əvvəl itkin düşmüş vətəndaşlarımızın taleyinin aydınlaşdırılması ciddi ictimai hadisə olmaqla yanaşı, həm də Azərbaycan dövlətinin öz vətəndaşına verdiyi dəyərin bariz nümunəsidir. Mən itkin ailələrini əmin edirəm ki, Vətən uğrunda döyüşlərdə itkin düşmüş bütün şəxslərin taleyinin aydınlaşdırılması üçün səylərimizi əsirgəməyəcəyik**

***2020-ci ilin payızında, 44 günlük İkinci Vətən müharibəsi ilə 30 il erməni işğalı altında qalan torpaqlarımız azad edildi. Dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin müzəffər sərkərdəliyi ilə milli ordumuzun qəhrəman zabit və əsgər heyəti Qarabağda üç əsrə bərabər hərbi taktika həyata keçirdi və bir qərinəyə yaxın düşmən tapdağı altında inləyən ata-baba yurdlarını soydaşlarımıza qaytardı.***

Azərbaycan xalqı Zəfər qazandı. Möhtəşəm tariximizin 270 ildən artıq dövründən sonra onun səhifələrinə qürur sətirləri yazıldı. Dövlətimizin başçısının 20 illik yorulmaz fəaliyyətinin və hər dəfə söylədiyi - əgər Qarabağ sülh yolu ilə geri alınmazsa, hərb yolu ilə azad ediləcək- dəyərli fikirlərinin nəticəsi olaraq ulu yurd yerlərimiz qarış-qarış düşməndən azad edildi.

Bu torpaqlar sülh yolu ilə də azad edilə bilərdi. Bunun üçün dövlətimizin başçısı illərlə beynəlxalq təşkilatlarla, müxtəlif dövlətlərlə danışıqlar apardı. Lakin həm ölkələr, həm də təşkilatlar susdu. Azərbaycan dövləti üçün yeganə yol qaldı: torpaqları hərb yolu ilə geri almaq. Və bunu 2020-ci ildə 44 günlük Vətən müharibədə gördük və şanlı Zəfərimizin qürurunu yaşadıq.

Birinci Vətən müharibəsində olduğu kimi, minlərlə şəhidimiz, qazimiz, itkinimiz oldu. Lakin bunlar müharibənin "qanunlarıdır". Nə şəhidsiz, nə qazisiz, nə itkinsiz, nə də dağıntısız müharibə olur. Zəfər şəhid, qazi, itkinlə qazanılır. İkinci Vətən müharibəsində əldə etdiyimiz şanlı Zəfər də çoxsaylı Vətən övladının şəhid olması, sağlamlığının məhdudlaşması və itkin düşməsi ilə qazanıldı. Təsəllimiz isə "Oğul torpaq üçün doğulur" deyimi oldu.

Lakin xalqı qarşıda yeni bir Zəfər də gözləyirdi. 2023-cü ildə Xankəndidə birgünlük antiterror əməliyyatı ilə daha böyük Zəfər qazandıq. Bu dəfə erməni nankorları torpaqlarımızı könüllü şəkildə tərk etdi və







bununla da Qarabağ və Şərqi Zəngəzurun işğal altında olan əraziləri tamamilə azad olundu. Dövlətimizin ərazi bütövlüyü və konstitusiya quruluşu bərpa olundu.

## İkinci Vətən müharibəsi Birinci Vətən müharibəsinə işıq saldı

İkinci Vətən müharibəsinin Zəfər günəşi Birinci Vətən müharibəsinə də işıq saldı. Belə ki, həmin dövrdə müharibədə şəhid olan, əsir götürülən və itkin düşən, ermənilər tərəfindən kütləvi, həm də vəhşicəsinə şəkildə öldürülən soydaşlarımızın məzarlıqları aydınlaşdırılmağa və müəyyən edilməyə, ailəsinə təhvil verilməyə başlandı. Bu isə Zəfərin qələbəsidir.



"İtkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması üçün milli və beynəlxalq səylərin artırılması" mövzusunda 18 sentyabr 2023-cü il tarixdə keçirilən beynəlxalq konfransın iştirakçılarına dövlətimizin başçısı İlham Əliyevin ünvanlandığı müraciətdə deyilirdi: İtkin düşmüş şəxslər məsələsi Azərbaycanın üzləşdiyi ən ağır problemlərdən biridir və konfransın mövzusu ölkəmiz üçün xüsusi aktuallıq kəsb edir. Birinci Qarabağ müharibəsi zamanı Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi nəticəsində 3890 vətəndaşımız itkin düşmüşdür. İtkin düşmüş şəxslərin ümumi sayından 872 nəfərin əsir-girov götürülməsi və ya vaxtilə işğal altında olmuş ərazilərdə qalmasına dair təkzibedilməz məlumatlar mövcuddur.

*Ardı Səh. 4*

# Xalqına əvvəl torpağını, sonra övladını qaytaran LİDER

**Prezident İlham Əliyev: 30 il əvvəl itkin düşmüş vətəndaşlarımızın taleyinin aydınlaşdırılması ciddi ictimai hadisə olmaqla yanaşı, həm də Azərbaycan dövlətinin öz vətəndaşına verdiyi dəyərin bariz nümunəsidir. Mən itkin ailələrini əmin edirəm ki, Vətən uğrunda döyüşlərdə itkin düşmüş bütün şəxslərin taleyinin aydınlaşdırılması üçün səylərimizi əsirgəməyəcəyik**

Əvvəli Səh. 3

Etibarlı məlumatlara əsasən, itkin düşmüş şəxslər Ermənistan tərəfindən işgəncələrə məruz qalmış, qətlə yetirilmiş və Azərbaycanın əvvəllər işğal olunmuş ərazilərində kütləvi məzarlıqlarda basdırılmışdır.

İtkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi məsələsi daim Azərbaycan dövlətinin diqqət mərkəzində olmuşdur. 1993-cü ildə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası yaradılmış və bu illər ərzində səmərəli fəaliyyət göstərmişdir.

2020-ci ildə Azərbaycanın torpaqlarının işğaldan azad edilməsi Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması üçün yeni imkanlar açdı. Lakin Ermənistan tərəfindən ərazilərimizin minalarla və partlamamış hərbi sursatlarla çirkləndirilməsi kütləvi məzarlıq yerlərinin müəyyən olunması, ekshumasiya işlərinin aparılması prosesinə ciddi maneələr yaradır.

Dövlət başçısının müraciətində daha sonra deyirdi ki, Vətən müharibəsindən dərhal sonra Dövlət Komissiyasının imkanlarının gücləndirilməsi istiqamətində mühüm addımlar atılmış, işğaldan azad edilmiş ərazilərdə kütləvi məzarlıqların yerlərinin müəyyən olunması, zəruri qazıntı və ekshumasiya işlərinin aparılmasına başlanılmışdır.

Beləliklə, ötən il Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası tərəfindən şəxsiyyəti müəyyən olunmuş 73 nəfər Azərbaycan vətəndaşına dair məlumatlar açıqlandı. Onlardan 64 nəfəri naməlum şəhid məzarlarından tapılan şəxslər idi. 9 nəfərin meyit qalığı isə Edilli, Daşaltı və Sarıcalı kəndində aşkarlanmış kütləvi məzarlıqlardan götürülmüşdü: Beyləqan rayonunun Şəfəq qəsəbəsində yerləşən "Peyğəmbər" qəbiristanlığı - 10 nəfər. Gəncə şəhərindəki Şəhidlər xiyabanı - 22 nəfər. Bakı şəhəri I və II Şəhidlər xiyabanı - 13 nəfər. Tərtər şəhərindəki Şəhidlər xiyabanı - 13 nəfər. Füzuli rayonu ərazisində - 6 nəfər. Xocavənd rayonunun Edilli kəndi (kütləvi məzarlıq) - 4 nəfər. Şuşa rayonunun Daşaltı qəsəbəsi (kütləvi məzarlıq) - 2 nəfər. Ağdam rayonunun Sarıcalı kəndi (kütləvi məzarlıq) - 3 nəfər.





## 30 il əvvəl itkin düşmüş vətəndaşlarımızın taleyi aydınlaşdı

Vətən müharibəsi bitəndən, xüsusilə 2023-cü ildəki birgünlük antiterror əməliyyatlarından sonra azad edilmiş torpaqlarda taleyi aydınlığa çıxarılan soydaşlarımızın adını eşitdik. Çünki Qarabağ və Şərqi Zəngəzur tamamilə erməni terrorçularından xilas edildi. Sərhədlərimiz möhkəmləndirildi. Və bu sərhədlər daxilində artıq 30 illik itkinlərimizi axtarıb tapa bildik. 30 ildən artıq bir dövrdə gözü yollarda nigaran qalan valideynlərinə, yaxınlarına onlar haqqında məlumat verildikcə, dəfn olunub məzarı bilindikcə, o insanların üzündəki ifadə adamı qürurlandırdı. Bu, sevinc ifadəsi, balasının naməlum taleyinə salınan işığın sevinci idi. Gözlərinin yollardan yığılmasının, həsrətin bitməsinin, doğmasına qovuşmanın sevinci idi. Bir məzarın təsəlli sevinci idi.

Ötən il iyul ayında araşdırmalar nəticəsində nəşi tapılan Birinci Qarabağ müharibəsində itkin düşmüş və şəxsiyyəti müəyyənləşdirilən on şəhidimiz haqqında əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası məlumat yayandan sonra qalıqları Xocalı rayonu ərazisində aşkar edilən şəhidlər Usubəli Süleyman oğlu Qarayev, Şahin Talış oğlu Məmişov, Əläddin Bəhlul oğlu Paşayev, Nemət Musa oğlu Şahmuradov və Zakir Kamran oğlu Usubovun nəşi Xocalı şəhərində dəfn olundu. Bu zaman hər kəsi təsirləndirən Xocalı şəhidi Zakir Usubovun oğlu Elmir Usubovun xatırlamadığı atasının tabutunu çiynində məzara endirməsi oldu. Xocalı faciəsi baş verəndə 1 yaşı olan Elmir şəhid atasının nəşinin 32 ildən sonra dəfn edilməsinin ailələri üçün böyük təskinlik olduğunu bildirmişdi: bütün ailəmizin gözü aydın olsun. Atamla heç vaxt şəklim olmayıb, indi onun məzarı ilə ilk şəklimi çəkdirdim".

## İşgəncə, fiziki zorakılıq və qeyri-insani rəftara məruz qalan soydaşlarımız

Ötən ilin mart ayında işğaldan azad edilmiş Xocalı şəhərinin mərkəzində (keçmiş xalça fabrikinin yaxınlığında) həyata keçirilən əsaslı bərpa-quruculuq işləri çərçivəsində aparılan qazıntı işləri zamanı basdırılmış vəziyyətdə kütləvi insan qalıqları aşkar olundu və fakt ilə bağlı araşdırmalara başlandı.

Bu barədə Baş Prokurorluğun Mətbuat xidməti məlumat verdi. Məlumatda bildirilirdi ki, qeyd olunan ərazidə həyata keçirilən baxış-istintaq hərəkəti nəticəsində aşkar edilmiş insan qalıqlarının müayinəsi zamanı onların 18 nəfər şəxsə məxsus olması (4 nəfərin azyaşlı olması ehtimal edilir), müxtəlif üsullarla işgəncə, fiziki zorakılıq və qeyri-insani rəftara məruz qalmaları, fərdi şəkildə və mənsub olduqları dinin tələblərinə uyğun qaydada dəfn olunmamaları, tapıla bilmələri üçün lazımi qaydada qorunmaları və nişanlanmalarının təmin olunmaması müəyyən edilib.

Aşkar edilmiş insan qalıqlarının xüsusiyyətlərinə görə ən azı 25 il əvvəl basdırıldığı da müəyyən edilmişdi.

Kütləvi məzarlıqda aşkar olunan insan qalıqlarından 10 nəfərin şəxsiyyəti müəyyən edilmişdi. Söz yox ki, yüzlərlə soydaşımız belə işgəncə, fiziki zorakılıq və qeyri-insani rəftara məruz qalıb. İşğaldan azad edilmiş ərazilərimiz minalardan tamamilə təmizləndikdən sonra araşdırmalar davam edəcək və hələ neçə belə qəbiristanlıqlar aşkarlanıb ortaya çıxarılacaq.

## Həm İkinci, həm də Birinci Vətən müharibəsinin LİDERİ

Böyük Zəfərdən bu günədək taleyi araşdırılan və nəşi Vətənində torpağa tapşırılan Vətən övladlarından söhbət açdıq. Onların övladlarına, övladların valideynlərinə qovuşması ilə hansı hissləri yaşadıqlarını ifadə etməyə çalışdıq. Məqsədim isə həm İkinci, həm də ondan düz 30 il əvvəl baş vermiş Birinci Vətən müharibəsinin Liderinə çevrilən dövlətimizin başçısının xalqımız qarşısında xidmətlərinə nəzər salmaq idi.

Bəli, cənab İlham Əliyev hər iki müharibənin Liderinə çevrildi. Əvvəlcə torpaqlarımızı düşməndən alıb soydaşlarımıza bəxş etməsi, ümumilikdə xalqın şərəf məsələsini həll etməsi ilə, sonra isə 30 ildən artıq bir dövrdə gözləri yollarda qalan ana-ataların, bacı-qardaşların övlad həsrətinə son qoyması ilə.

Bir də cənab Prezident ona görə hər iki müharibənin Lideri ola bildi ki, vaxtilə torpaqların işğal olunmasında bilavasitə günahı olan ozamankı hakimiyyət mənsublarının böyük səhvini çox çətinliklə olsa da, düzəltdi. Onlara göstərdi ki, torpağı qorumaq, onun əsl sahibinə çevrilmək, dövlətə və dövlətçiliyə sədaqət, xalq-dövlət birliyini yarada bilmək, bir yumruq altında birləşib, onu gücə çevirmək necə olur. Elə bu səbəblərdən də bizim Prezident hər bir azərbaycanlının Prezidenti ola bildi.

***Mətanət Məmmədova***

## Şarl Mişel: Sülh həmişə daha düzgün və daha ağıllı seçimdir



Mən əvvəlki fəaliyyətim dövründə Ermənistan ilə Azərbaycan arasında dialoqun bərpası istiqamətində müxtəlif təşəbbüsləri dəstəkləmiş, həmin prosesin nə qədər mürəkkəb, nə qədər həssas olduğunu yaxından müşahidə etmişəm. Buna görə də bu gün artıq əldə olunan irəliləyişləri və hər iki tərəfin atdığı cəsarətli addımları görmək mənim üçün böyük məmnunluq doğurur. Bu, gələcəyə ümidlə baxmaq üçün ciddi əsas yaradır. Çünki əgər hər iki tərəf bu cür cəsarətli və uzaqgörən qərarlar qəbul edirsə, bu, səmimi şəkildə daha çox irəliləyiş əldə etmək istəklərinin göstəricisidir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri jurnalistlərə açıqlamasında Avropa İttifaqı Şurasının keçmiş Prezidenti Şarl Mişel bildirib.

O bildirib ki, sülh həmişə daha düzgün və daha ağıllı seçimdir. "Sülh iqtisadi inkişafın, qarşılıqlı əməkdaşlığın və regional inteqrasiyanın yeganə zəmanətidir. Bu, təkcə Azərbaycan üçün deyil, bütövlükdə region üçün həyati əhəmiyyət daşıyır. Bu istiqamətdə atılan hər addım, əldə olunan istənilən nailiyyət yeni iqtisadi imkanların, sərmayə axınının və davamlı inkişafın əsasını qoyur. Mən inanıram ki, bu proses davam edəcək və regionun gələcəyi sabitlik, tərəqqi və əməkdaşlıq ruhu üzərində qurulacaq", - deyə o qeyd edib.

# Bölgə üçün yeni inkişaf şansı

## Rusiyalı ekspert: nəqliyyat və ticarət yollarının açılması bütün region ölkələri üçün faydalıdır

***Tanınmış rusiyalı ekspert Mixail Belyayev "Moskva-Baku" portalına verdiyi müsahibədə Azərbaycanın öz ərazisini Ermənistan üçün tranzit yüklərə açmasının region ölkələrinə, o cümlədən Rusiyaya gətirəcəyi iqtisadi faydalardan danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.***

***- Mixail Kimoviç, Azərbaycan öz ərazisini Ermənistan üçün tranzit yüklərə açmaq qərarına gəlib. İlk belə yük Qazaxıstandan buğda olacaq. Bu qərar Rusiya üçün iqtisadi baxımdan nə deməkdir?***

- Azərbaycanın öz ərazisini Ermənistan üçün tranzit yüklərə açmaq qərarı Bakı və Yerevanın sülhə sadiqliyinin güclü bir əlamətidir. Həmişə yadda saxlamaq lazımdır ki, bu ölkələr Rusiya ilə həmsərhəddir. Rusiyanın həm Azərbaycan, həm də Ermənistanla sıx ticarət və iqtisadi əlaqələri var. Aydındır ki, Rusiya üçün həcmlər mütləq baxımdan azdır, lakin Azərbaycan və Ermənistan bizə konkret məhsul kateqoriyaları təqdim edir. Rusiya bu iki dövlətin qarşıdurma deyil, müsbət qarşılıqlı əlaqəsindən faydalanır. Bu, əhəmiyyətli və müsbət bir inkişafdır. Bütün bunlar Rusiyanın maraqlarına uyğundur. Rusiya üçün bu, Ermənistanla alternativ əlaqəni də əhatə edir. Və bundan sonra Türkiyəyə də yol açır. Rusiya üçün bu, Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi layihəsi çərçivəsində yeni imkanlar yaradır.
















Azərbaycanın qərarı ölkələrimiz arasında ticarətin artırılması baxımından vacibdirhəm ikitərəfli, həm də çoxtərəfli. Xüsusən də Qarabağ münaqişəsi səbəbindən üç qonşusundan ikisi tərəfindən 30 ildən çox blokadada olan Ermənistan üçün. Məlum olur ki, Ermənistan blokadada olduğu üçün boz zona idi, amma indi yeni imkanlar yaranır. Ermənistan və Azərbaycan əvvəl-axır ticarət etməli idilər. Ermənistanın Rusiya ilə obyektiv, faydalı iqtisadi əlaqəsi var və bunu yadda saxlamalıdır. Və dənizə çıxışı olmayan ölkə olaraq Azərbaycan vasitəsilə dəniz limanlarına maneəsiz çıxışı təmin edəcək nəqliyyat dəhlizləri əldə edəcək.

Çoxtərəflilik baxımından, Azərbaycanla Ermənistan arasında nəqliyyat və iqtisadi əlaqələrin qurulması ümumiyyətlə həm MDB, həm də Aİİ üçün faydalıdır. Bu yaxınlarda Rusiya Xarici İşlər Nazirliyinin mətbuat katibi Mariya Zaxarova qeyd etdi ki, Azərbaycan Respublikası Avrasiya İqtisadi İttifaqı ilə daha sıx qarşılıqlı əlaqədə olmağa başlayıb. Həqiqətən də, Azərbaycanın Baş naziri Əli Əsədov mütəmadi olaraq, o cümlədən bu yaxınlarda Aİİ-in görüşlərində iştirak edir və Azərbaycanın imkanlarını təbliğ edir ki, bu da Aİİ ölkələrinə əməkdaşlıq yolu ilə fayda verə bilər.

Tranzitin bir neçə faydası var: malların çatdırıldığı bir və ya daha çox ölkə (axı tranzit ölkələri də gəlir əldə edirlər) və yükün alıcısı olan dövlətin özü. Buna görə də, Azərbaycan üzərindən Ermənistana tranzitin açılması bir çox oyunçu üçün maraqlı və faydalı ola bilər.

Daha geniş şəkildə desək, nəqliyyat marşrutları əlavə iş yerləri yaradır və iqtisadi inkişafa təkan verir. Gəlin obyektiv olaq. Rusiya, Azərbaycan və Ermənistan liderləri 2020-ci ildə tarixi üçtərəfli bəyanatı imzalayanda Moskvanın təklif etdiyi yaxınlaşma formulu məhz Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasının ilk mərhələsi nəqliyyat və iqtisadi əlaqələrin açılması idi. Üç ölkənin baş nazir müavinləri səviyyəsində işçi qrupunun işinə əsaslanaraq, bu məsələ ilə bağlı nə qədər hazırlıq görüldüyünü xatırlayırıq. Həmçinin, razılaşmaların bir nöqtədə niyə dayandığını da xatırlayırıq. Və məlum olur ki, Rusiyanın formulu bu və ya digər dərəcədə doğru idi. İndi isə Azərbaycanla Ermənistan arasında nəqliyyat və iqtisadi əlaqələrin açılması ideyası tədricən reallaşmağa başlayır.



Əlbəttə ki, dövlətlər arasındakı münasibətlərdə müxtəlif təlatümlər və siyasi maneələr mövcuddur, lakin istənilən ağıllı lider başa düşür ki, ölkənin coğrafiyası ilə müəyyən edilən obyektiv iqtisadi imkanlar həmişə mövcuddur. Coğrafiya iqtisadi perspektivləri və imkanları diktə edir, ölkənin rifahını, gücünü, gücünü və nəticə etibarilə siyasi ambisiyalarını müəyyən edir. Bir ölkənin iqtisadi təməli varsa, səsi daha da ucalır; siyasi və iqtisadi təməl olmadan, səsinizi nə qədər qaldırmağa çalışsanız da, faydasız olacaq.

Nəqliyyat əlaqələri olmayan, nəqliyyat imkanları olmayan iqtisadiyyat mümkün deyil. Mallarınız, təklif edəcəyiniz, satacağınız bir şeyiniz var, amma bunları çatdırmaq üçün nəqliyyat marşrutlarınız yoxdursa, heç bir şey işləməyəcək. Bu baxımdan qeyd etmək istərdim ki, bloklanmanın açılmasından ən çox Ermənistan faydalanacaq. Eşitdiyimiz kimi, Tbilisidə keçirilən İpək Yolu Forumunda Baş nazir Nikol Paşinyan Azərbaycan tərəfinə Ermənistana tranzit yüklər üçün ərazisini açmasına görə təşəkkür etdi və Cənubi Qafqazda sülhün və bütün dövlətlərin bu çərçivədə əməkdaşlıq etməsinin vacibliyini bir daha vurğuladı. Əlbəttə ki, bu, regionda sabitlik və inkişaf üçün çox vacib bir mesajdır. Ermənistan Nazirlər Kabinetinin rəhbəri həmçinin bildirib ki, Ermənistan həm siyasi, həm də texniki cəhətdən Meğridən gələn Azərbaycan yüklərinin Ermənistan ərazisindən avtomobil yolu ilə keçməsinə icazə verməyə hazırdır. Təbii ki, görürük ki, sülh arzusu, məcazi mənada, həm Azərbaycan, həm də Ermənistan üçün ikitərəfli bir yoldur. Və bu "yol"da nəqliyyat var. Qarşıda uzun bir yol var- Ermənistandan keçməklə Azərbaycanı Naxçıvan anklavı ilə birləşdirəcək dəmir yolunun tikintisi. Bu magistral yolların- dəmir yolu, avtomobil yolu və digərlərinin- tikintisi öz növbəsində iqtisadiyyata töhfə verir. Bunlar investisiyalardır, tikinti materialları və avadanlıqları istehsal edən fabriklərə təkan verir. Bunlar həm də yeni iş yerləri deməkdir.

Rusiya üçün Cənubi Qafqaz və Xəzər regionu strateji əhəmiyyət kəsb edir. Rusiyanın Cənubi Qafqaz dövlətlərinin və qonşularının iştirakı ilə həyata keçirdiyi strateji layihələrə nəzər salmaq kifayətdir. Avqust ayında Həştərxanda Şimal-Cənub Nəqliyyat Dəhlizinin həyata keçirilməsini müzakirə etmək üçün Rusiya-Azərbaycan hökumətlərarası komissiyasının iclası keçirildi. Bu yaxınlarda Bakıda Rusiya və Azərbaycan baş nazirlərinin müavinləri ilə İran nəqliyyat nazirinin üçtərəfli görüşü keçirildi. Tərəflər həmçinin Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin Rəşt-Astara hissəsinin tikintisini, gömrük prosedurlarının sadələşdirilməsini və enerji əməkdaşlığını müzakirə etdilər. Axı ölkələrimiz bir səbəbdən əməkdaşlıq edirlər; bu, faydalıdır. Və bu iqtisadi əməkdaşlıq siyasi qarşılıqlı əlaqəni gücləndirir. Çoxqütblü dünya və onun inkişafı bu gün çox aktualdır. Çoxqütblü dünya yalnız açıq şəkildə dominant zirvələrdən deyil, həm də regional miqyasda zirvələrdən ibarətdir. İqtisadi fəaliyyətin və qarşılıqlı əlaqənin cəmləşdiyi Cənubi Qafqaz bölgəsi buna nümunədir. Bu fəaliyyət coğrafiya və tarix, deməli, mövcud perspektivlər ilə müəyyən edilir. Ölkələr mövcud imkanlardan istifadə etdikdə, düzgün fəaliyyət göz qabağındadır.

Gəlin Cənubi Qafqaz bölgəsi vasitəsilə həyata keçirilən nəqliyyat layihələrinə nəzər salaq. Bunlara Şimal-Cənub Dəhlizi, Zəngəzur Dəhlizi və ona paralel olaraq tikilən Araz Dəhlizi, həmçinin Orta Dəhliz layihəsi daxildir. Beləliklə, region multimodal marşrutların- dəmir yolu, avtomobil və dəniz nəqliyyatının bütöv bir şəbəkəsini cəmləşdirir. Bu, əsl nəqliyyat mərkəzi, yol ayrıcıdır. Bu imkanların, bəzi hallarda artıq müxtəlif nəqliyyat marşrutlarının birləşdirilməsini və yüklərin bir nəqliyyat növündən digərinə ötürülməsini asanlaşdıran, digər hallarda isə asanlaşdıracaq müasir texnologiyalarla birləşməsi ölkələrə üstünlüklər və manevr imkanı verir. İqtisadiyyatda isə manevr imkanı olan yerdə həmişə fayda əldə edirsiniz.

***Tərcümə - Elçin Bayramlı***

*EKSPERT AÇIQLADI*

# Şagirdlərin dərsə marağının azalmasına səbəb NƏDİR ?

"Şagirdlərin dərsə marağının azalması probleminin kökündə bir neçə sistemli və sosial-psixoloji amil dayanır. Müasir təhsil mühitində bu problem təkcə tədris metodları ilə deyil, həm də məktəbdəki sosial atmosfer, müəllim-şagird münasibətləri, ailə təsiri və uşağın psixoloji hazırlıq səviyyəsi ilə sıx



bağlıdır. Elm və Təhsil Nazirliyi bu sahədə son illər ardıcıl şəkildə yeni yanaşmalar tətbiq etməklə şagird motivasiyasının yüksəldilməsi, dərs mühitinin sağlamlaşdırılması və psixoloji dəstəyin institusionallaşdırılması istiqamətində mühüm addımlar atır". Bu sözləri SİA-ya açıqlaması təhsil üzrə ekspert Kamran Əsədov deyib.

Ekspert bildirib ki, əldə olan məlumatlara görə, ölkə üzrə 2023-cü ildə aparılan monitorinqlər nəticəsində şagirdlərin 47 faizinin dərsə marağında azalma müşahidə olunub, xüsusilə V-IX siniflər arasında bu göstərici daha yüksəkdir. Səbəblərin təhlili göstərir ki, ən ciddi faktorlar arasında standartlaşdırılmış tədris formalarının uşaqların fərdi maraqlarına uyğun gəlməməsi, müəllimlərin motivasiyaedici kommunikasiya üsullarından az istifadə etməsi, eləcə də sosial və emosional iqlimin zəif olması ön plandadır. "Təhsil haqqında" Qanunun 10-cu maddəsində göstərilir ki, təhsil prosesi "şəxsin fərdi inkişafını, emosional sabitliyini və sosial adaptasiyasını" təmin etməlidir. Bu norma məktəblərdə psixoloji mühitin tənzimlənməsinin hüquqi əsasını təşkil edir, lakin praktiki tətbiq hələ də tam səviyyədə deyil.



Şagird motivasiyasının azalmasında psixoloji amillər mühüm rol oynayır. Uşaq məktəbə gələndə özünü təhlükəsiz, qəbul edilmiş və dəyərli hiss etməlidir. Psixoloqların fikrincə, bu hissi yaratmayan mühitdə öyrənmə marağı uzunmüddətli ola bilmir. Nazirlik tərəfindən 2024-cü ildən etibarən "Məktəbdə Psixoloji Xidmətin Gücləndirilməsi Proqramı" çərçivəsində artıq 650 məktəbdə psixoloq ştatı artırılıb, daha 400 məktəbdə isə əlavə psixoloji kabinetlər yaradılıb. Məqsəd yalnız problemli uşaqlarla deyil, bütün sinif kollektivi ilə emosional-intellektual bacarıqların inkişafı istiqamətində işləməkdir. Bu model Finlandiya və Estoniya təcrübəsinə əsaslanır - həmin ölkələrdə hər məktəbdə bir psixoloq və bir sosial işçi birgə fəaliyyət göstərir, uşağın həm dərsdə, həm də sosial mühitdə davranışını müşahidə edir və erkən mərhələdə müdaxilə imkanı yaradır.

Sosial mühitin keyfiyyəti də motivasiyanın əsas göstəricisidir. Məsələn, UNICEF-in 2022-ci il hesabatına əsasən, məktəbdə zorakılıq, təhqir və qrupdan təcrid hallarının artdığı təhsil sistemlərində dərsə davamiyyət 18-25 faiz azalır. Azərbaycanda da bəzi məktəblərdə sosial münasibətlərin zəif qurulması, müəllimlərin emosional dəstək verməməsi və valideynlərin məsuliyyətsiz yanaşması uşaqda dərsə mənfi assosiasiya yaradır. Buna qarşı Elm və Təhsil Nazirliyi "Məktəbdə sağlam sosial mühit" təşəbbüsünü həyata keçirir. Layihə çərçivəsində direktor, müəllim və psixoloqlara sosial emosional təhsil modulları üzrə təlimlər keçirilir, şagirdlərdə əməkdaşlıq, empatiya və komanda bacarıqları inkişaf etdirilir.

Motivasiyanın azalmasının digər səbəbi təhsil məzmununun şagirdlərin gündəlik həyatı ilə əlaqəsinin zəifliyidir. Beynəlxalq Tələbə Qiymətləndirmə Proqramı - PISA-nın 2022-ci il nəticələrinə əsasən, Azərbaycan şagirdlərinin 38 faizi öyrəndikləri bilikləri real həyatda tətbiq edə bilmədiklərini etiraf edib. Bu, təlim metodikasının yenilənməsinin vacibliyini göstərir. Nazirliyin "Rəqəmsal Məktəb" və "STEAM tədris modeli" layihələri bu boşluğu aradan qaldırmaq məqsədi daşıyır. STEAM dərslərində şagirdlər öz biliklərini layihə üzərində tətbiq etdikləri üçün onların dərsə marağı 26 faiz artıb - bu, 2024-cü ilin monitorinq məlumatlarında qeydə alınıb.

Dünya təcrübəsi göstərir ki, şagird motivasiyası yalnız tədris keyfiyyəti ilə deyil, həm də məktəbin sosial həyatının zənginliyi ilə ölçülür. Yaponiya və Sinqapurda məktəblərdə "community learning" sistemi tətbiq olunur - dərs saatlarından sonra klub, teatr, idman və könüllü fəaliyyətlər uşaqlarda məktəbə bağlılıq hissini möhkəmləndirir. Azərbaycanda da bu istiqamətdə "Asudə vaxtın təşkili", "Təhsil könüllüləri" və "Məktəbli klubları" layihələrinin miqyası genişlənir. Bu fəaliyyətlər uşağın məktəbi təkcə dərs yeri deyil, həm də sosial və emosional mərkəz kimi qəbul etməsinə kömək edir.

Hesab edirəm ki, şagirdlərin dərsə marağının azalması yalnız fərdi məsələ deyil, bütövlükdə təhsil sisteminin psixoloji və sosial strukturuna təsir edən kompleks problemdir. Elm və Təhsil Nazirliyinin bu istiqamətdə gördüyü işlər - psixoloji xidmətin gücləndirilməsi, sosial emosional təhsil proqramlarının tətbiqi, STEAM və layihə əsaslı öyrənmə modellərinin genişləndirilməsi - müsbət nəticələr verir və məktəbdə sağlam sosial mühitin formalaşmasına real təsir göstərir. Lakin bu sahədə ən vacib məsələ davamlılıq və differensial yanaşmadır: hər məktəbin sosial mühiti eyni deyil və hər şagirdin motivasiyası fərqli mexanizmlərlə formalaşır. Bu baxımdan, gələcəkdə məktəb psixoloqlarının sayının artırılması, müəllimlərin motivasiyaedici pedaqogika üzrə ixtisasartırma proqramlarının genişləndirilməsi və valideyn maarifləndirilməsinin sistemli şəkildə qurulması təhsilin keyfiyyətinə və şagirdlərin maraq səviyyəsinə birbaşa müsbət təsir göstərəcək".

***Səbinə Hüseynli***

# Sumqayıt Gömrük İdarəsində gömrükçü əməkdaşların psixoloji vəziyyətinin qiymətləndirilməsinə həsr olunmuş tədbir və qanvermə aksiyası keçirilib

25 oktyabr 2025-ci il tarixində Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin təşkilatçılığı ilə Sumqayıt Gömrük İdarəsində gömrükçü əməkdaşların psixoloji vəziyyətinin qiymətləndirilməsinə həsr olunmuş tədbir və qanvermə aksiyası keçirilib. Tədbirdə Sumqayıt Gömrük İdarəsinin rəisi Tariyel Alverdiyev, rəis müavini Vidadi Cəfəraliyev, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini, t.ü.f.d., dosent Dr. İsmayıl Əfəndiyev, Tibbi Xidmət İdarəsinin Həkim Tibb Komissiyasının həkim-psixiatrı, t.ü.f.d Gülay Məmmədzadə, Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi Tədris Mərkəzinin mütəxəssisi Şəhla Mirzəzadə, Mərkəzi Gömrük Hospitalının PR üzrə mütəxəssisi Dilarə Zamanova və gömrükçü əməkdaşlar iştirak ediblər. və gömrükçü əməkdaşlar iştirak ediblər.










Açılış nitqi ilə çıxış edən Sumqayıt Gömrük İdarəsinin rəisi Tariyel Alverdiyev gömrük orqanlarında xidmət edən əməkdaşların psixoloji vəziyyətinin qorunması, sağlam həyat tərzinin təşviqi və kollektivdə pozitiv mühitin formalaşdırılmasının Dövlət Gömrük Komitəsinin daim diqqət mərkəzində olduğunu bildirib. O, tədbirin təşkilinə görə Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədova və Səhiyyə Nazirliyi Respublika Qan Bankının Sumqayıt bölməsinin müdiri Leyla Məhərrəmovaya təşəkkürünü bildirib.

Daha sonra Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini, t.ü.f.d., dosent Dr. İsmayıl Əfəndiyev çıxış edərək həyata keçirilən psixoloji testlərin əməkdaşların emosional vəziyyətinin qiymətləndirilməsinə, stressə qarşı davamlılığın artırılmasına və iş mühitində qarşılıqlı anlaşmanın gücləndirilməsinə xidmət etdiyini vurğulayıb. Tədbir könüllü qanvermə aksiyası ilə yekunlaşıb.

# Gülüşün SİRRİ: sağlamlıq, beyin və sosial münasibətlərə təsirləri




***Gülüş, insan həyatında həm sosial, həm də bioloji əhəmiyyətə malik unikal bir fenomen olaraq qəbul edilir. Sadə bir zarafat, yaxın dostun gülüşü və ya gözlənilməz bir hadisə bizi güldürə bilər. Lakin elm göstərir ki, gülüş yalnız əhvalımızı qaldırmaqla kifayətlənmir; o, beynin fəaliyyəti, immun sistemi, ürək-damar sağlamlığı və sosial münasibətlər üzərində də dərin təsir göstərir. Bu araşdırma gülüşün neyrobioloji, fizioloji, psixoloji və sosial aspektlərini sistemli şəkildə izah etməyə çalışır.***



## Gülüşün tərifi və neyrobiologiyası

Gülüş, beynin müxtəlif hissələrinin eyni anda aktivləşməsi nəticəsində yaranan kompleks bir emosional reaksiyadır. Bu prosesdə həm şüurlu mexanizmlər (yumoru anlama, sosial konteksti qiymətləndirmə), həm də qeyri-şüurlu mexanizmlər (emosional boşalma) iştirak edir. Neyroloji tədqiqatlar göstərir ki, gülərkən beynin ventral striatum hissəsi - ”mükafat mərkəzi” aktivləşir və dopamin ifraz olunur. Dopamin hormonunun yüksəlməsi isə həm əhvalın yaxşılaşmasına, həm də motivasiyanın artmasına səbəb olur. Bundan əlavə, gülüşün serotoninin sərbəst buraxılmasına təsir etdiyi və stress hormonlarının səviyyəsini azaltdığı müəyyən edilib.





## Gülüşün fizioloji təsirləri

Gülüş yalnız beyinlə məhdudlaşmır; o, bütün bədənə təsir göstərir:

Əzələ fəaliyyəti: Gülərkən təxminən 400 əzələ eyni anda işləyir, xüsusilə üz, qarın və diafraqma əzələləri.

Ürək-damar sistemi: Gülmək ürək ritmini artırır, qan dövranını sürətləndirir və qan təzyiqini tənzimləyir.

Nəfəsalma: Gülüş zamanı ağciyərlər daha çox oksigenlə dolur, bu da toxumalara oksigen çatdırılmasını yaxşılaşdırır.

İmmunitet sistemi: Tədqiqatlar göstərir ki, gündə 10-15 dəqiqə ürəkdən gülmək immun sistemini gücləndirir, stress hormonlarını (kortizol və adrenalin) azaldır.

Bu fizioloji təsirlər nəticəsində gülüş həm qısa müddətli, həm də uzun müddətli sağlamlığa faydalı olur.

## Gülüş və emosional sağlamlıq

Psixoloqlar gülüşün depresiya və narahatlıqla mübarizədə təbii ”terapiya” rolunu oynadığını bildirirlər. Koqnitiv Davranış Terapiyası (CBT) praktikalarında bəzən ”gülüş məşqləri” tətbiq olunur. Bu məşqlərdə xəstələr özlərini gülməyə təşviq edən fəaliyyətlər seçir, bu da stressi azaldır, əhvalı yüksəldir və psixoloji gərginliyi azaldır. Gülüş həmçinin daxili emosiyaların sərbəst buraxılmasını təmin edir. Sigmund Freud hesab edirdi ki, gülüş insanın basdırılmış emosiyalarını sərbəst buraxır və daxili gərginliyi azaldır.



## Sosial münasibətlərdə gülüş

Gülüş insanlar arasında emosional bağ yaradır. Araşdırmalar göstərir ki, gülüş paylaşdığı şəxslərlə inam və yaxınlıq hissini artırır. Sosioloqlar ”gülüş sinxronluğu” fenomenini izah edirlər: qrup daxilində bir nəfərin gülməsi digər iştirakçıların da beynində ”ayna neyronları”nın aktivləşməsinə səbəb olur və hamı eyni emosional dalğaya qoşulur. Bu fenomen, sosial qrupların harmonik və yaxın münasibətlər qurmasında mühüm rol oynayır.

## Gülüş terapiyası və reabilitasiya

”Gülüş terapiyası” (laugh therapy) metodları bir çox reabilitasiya mərkəzlərində tətbiq olunur. Xroniki ağrıdan əziyyət çəkən pasiyentlərdə gülüşün ağrı hissini azaldığı müşahidə edilmişdir. Bu, endorfinlərin sərbəst buraxılması və psixoloji stressin azalması ilə izah olunur. Gülüş terapiyası həmçinin psixi sağlamlıq problemlərinin, məsələn, depressiya və narahatlığın müalicəsində əlavə vasitə kimi istifadə edilir.

## Dünya praktikasına nəzər yetirdikdə isə...

Dünya nəzəriyyəsinə görə, gülüş yalnız fərdi və ya sosial bir fenomen deyil, həm də mədəniyyətlərarası və bioloji universal bir hadisə kimi qiymətləndirilir. İnsanlar tarix boyunca müxtəlif mədəniyyətlərdə gülüşü həm emosional ifadə, həm də sosial əlaqələrin qurulması vasitəsi kimi qəbul ediblər.

Elmi araşdırmalar göstərir ki, gülüş bütün insan populyasiyasında oxşar nevroloji və fizioloji mexanizmlərlə müşahidə olunur: dopamin və endorfinlərin sərbəst buraxılması, ürək-damar fəaliyyətinin stimullaşması, və sosial əlaqələrin möhkəmlənməsi. Bu isə gülüşün təkcə fərdi bir əyləncə deyil, həm də insan həyatında universal bir bioloji və psixoloji rol oynadığını təsdiqləyir.



Dünya nəzəriyyəsi həmçinin vurğulayır ki, qlobal cəmiyyətlərdə gülüşün rolu konfliktlərin azaldılması, sosial harmoniyanın qorunması və emosional intellektin inkişaf etdirilməsi kimi funksiyaları da əhatə edir. Başqa sözlə, gülüş insanlığın birləşdirici elementidir və onun təsiri bütün dünyada oxşar qanunauyğunluqlarla işləyir.

## Yaradıcılıq və koqnitiv funksiyaları nədən ibarətdir ?

Təcrübələr göstərir ki, gülüş insanın yaradıcılıq qabiliyyətini artırır. Stanford Universitetinin tədqiqatçıları müəyyən etmişlər ki, gülüşdən dərhal sonra insanların yeni və orijinal ideyalar irəli sürmə ehtimalı 25% yüksəlir. Bu, beynin sağ yarımkürəsinin aktivləşməsi və yeni neyron əlaqələrin qurulması ilə əlaqələndirilir. Nəticədə, gülüş həm əhvalı yaxşılaşdırır, həm də intellektual performansı stimullaşdırır.



Gülüş sadəcə xoş bir hiss deyil, həm də bioloji və psixoloji baxımdan güclü bir müalicəvi prosesdir. O, beyin fəaliyyətini stimullaşdırır, immun sistemi gücləndirir, sosial bağları möhkəmləndirir və yaradıcılığı artırır. Elm adamları bu səbəbdən deyirlər: ”Gülüş, ən ucuz dərmandır.” Gündəlik həyatımızda daha çox gülməyə yer vermək həm sağlamlıq, həm də emosional rifah üçün vacibdir.

*Günel Fərzəliyeva*

# Azadlığa qovuşan Qubadlının Şəhər Günü

## Prezident İlham Əliyev: "Qubadlı rayonunun və Qubadlı şəhərinin azad edilməsi bizə böyük strateji üstünlük təmin edirdi"

***Müzəffər Azərbaycan Ordusu 2020-ci il oktyabrın 25-də Qubadlı şəhərini işğalçılardan azad edərək üçrəngli bayrağımızı 30 ilə yaxın müddətdən sonra həmin ərazilərdə qürurla dalğalandırıb. Həmin tarixi hadisədən - Qubadlının işğaldan azad olunmasından beş il ötür. Prezident İlham Əliyevin məlum Sərəncamına əsasən, oktyabrın 25-də "Qubadlı Şəhəri Günü" kimi təntənəli şəkildə qeyd edilir. "Peşəkarlıq, qəhrəmanlıq, planlaşdırma, güclü iradə, milli ruh, texniki təchizat - bütün bu amillər birlikdə və xalq-iqtidar birliyi bizim Qələbəmizi şərtləndirdi", - deyə Prezident İlham Əliyev çıxışlarının birində bildirmişdir.***




Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində işğalda olan şəhər, qəsəbə və kəndlərimiz azad edildi. Bu Zəfər tariximizin ən şanlı səhifəsidir. Tarixin yaşanılacaq zamanlarında Zəfər tariximiz şərəf tarixi olaraq vərəqlənəcəkdir. Müharibənin qızğın getdiyi günlərdə Zəfərimizə doğru irəliləyirdik. Demək olar ki, hər gün kənd, qəsəbə və şəhərlərin işğaldan azad olunması xəbərini eşidirdik. "Bir aya yaxındır ki, ikinci Qarabağ müharibəsi davam edir. Bu müharibə xalqımız üçün Vətən müharibəsidir. Biz Vətən torpaqlarını işğalçılardan azad edirik. Bu müddət ərzində Şanlı Azərbaycan Ordusu bir çox yaşayış məntəqələrini düşməndən azad edibdir. Biz döyüş meydanında tarixi ədaləti bərpa edirik. Çünki Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır". Bu fikirləri Azərbaycan Prezident İlham Əliyev bildirmişdir. Zəngilan şəhərinin işğaldan azad olunması xəbərindən bir neçə gün sonra Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqımıza müjdə verərək. bir neçə kəndin, eləcə də Qubadlı şəhərinin işğaldan azad olunmasını bildirməsi artıq Zəfərimin yaxınlaşdığından xəbər verirdi: "Biz əsgərlərimizin, zabitlərimizin canı-qanı bahasına bu torpaqları azad edirik. Həm döyüş meydanında, həm siyasi müstəvidə özümüzü təsdiqləmişik, dünyaya təsdiqləmişik. Azərbaycan xalqını qürurlu xalq kimi, cəsarətli xalq kimi, yenilməz xalq kimi təsdiqləmişik. Heç bir təzyiq bizə təsir edə bilməz. Heç bir hədə-qorxu bizi yolumuzdan döndərə bilməz. Çünki haqq yolundayıq, yumruq kimi birik. Bu birlik əbədidir və əbədi olacaq!"

Uğurla davam edən döyüş əməliyyatı Azərbaycanın Zəfər tarixini yazdı. Azərbaycan ordusunun əzmi, əsgər adını şərəflə daşıyan oğullarımızın ermənilərə verdiyi dərs bu torpaqları işğaldan azad etdi. Biz onların qarşısında baş əyirik, onlarla qürurlanırıq. Cənab Prezident Qubadlının azad olunması ilə bağlı belə deyirdi: "Qubadlı əməliyyatı xüsusi peşəkarlıq və fədakarlıq tələb edirdi. Azərbaycan Ordusu da bu peşəkarlığı, fədakarlığı göstərib. İlk növbədə, şəhərə hakim olan yüksəkliklər götürüldü, ətrafda yerləşən kəndlər, o cümlədən, Xanlıq qəsəbəsi, Padar, Sarıyataq, Mahmudlu kəndləri götürüldü və strateji yüksəkliklər ələ keçirildi. Ondan sonra Azərbaycan Silahlı Qüvvələri şəhərə girib, buranı da düşməndən təmizləyiblər. Qubadlı rayonunun və Qubadlı şəhərinin azad edilməsi bizə böyük strateji üstünlük təmin edirdi. Çünki Qubadlıdan sonra növbəti istiqamət Laçın rayonu idi".

### "BİZ DÜŞMƏNİ TOPLAM 404 YÜK AVTOMOBİLİNDƏN MƏHRUM ETMİŞİK"

Artıq müharibənin başlamasından demək olar ki, bir ay ötürdü. Bir ay ərizində Ermənistanın məhv edilmiş və hərbi qənimət götürülmüş texnikası açıq-aydın döyüş meydanında Ermənistanın məğlubiyyətinin göstəricisi idi. "252 tank məhv edilib, 53 tank qənimət kimi götürülüb. Toplam 305 tankdan Ermənistan məhrum edilib. Amma hələ tankları var. Görün nə qədər tank olub onlarda. Piyadaların döyüş maşını - 50-si məhv edilib, 29-u qənimət kimi götürülüb - cəmi 79 ədəd. Müxtəlif çaplı toplar - 251-i məhv edilib, 24-ü qənimət kimi götürülüb, cəmi 275. Minaatan - 61-i məhv edilib, 45-i qənimət kimi götürülüb, toplam 106. Tank əleyhinə vasitə - 53-ü məhv edilib. 82 "Qrad" qurğusu məhv edilib. 2 "Uraqan" Yaylım Atəşli Raket Sistemi, 1 "TOS" məhv edilib. Zenit-raket kompleksləri - 4 "TOR", 40-a yaxın "OSA", 4 "KUB", 1 "KRUQ", 2 "S-125" qurğusu məhv edilib. "S-300" ən bahalı qurğulardan biridir, 6"S-300" atıcı qurğusu məhv edilib. Bir aşkaretmə stansiyası, bir lokator. Qiyməti bəllidir. Hər kəs hesablaya bilər. Əməliyyat taktiki raket kompleksləri - Elbrus, ikisi məhv edilib, "Toçka-Ulu Öndər" biri məhv edilib. Yük avtomobilləri - 231 yük avtomobili məhv edilib, onlardan 20-si sursatı ilə. 173 yük avtomobili hərbi qənimət kimi götürülüb. Biz düşməni toplam 404 yük avtomobilindən məhrum etmişik" - deyə Cənab Prezident xalqa müraciətində diqqətə çatdırmışdır.

### "BİZ QUBADLI RAYONUNUN BÜTÜN KƏNDLƏRİNİ, O CÜMLƏDƏN QUBADLI ŞƏHƏRİNİ YENİDƏN QURACAĞIQ"

Qubadlı rayonu 25 oktyabr 2020-ci il tarixində düşmən qoşunlarında təmizləndi. Qubadlı rayonunun azad edilməsi əməliyyatı bir neçə gün çəkdi. Zəngilan şəhəri oktyabrın 20-də azad olunandan sonra təbii ki, növbəti istiqamət Qubadlı rayonu idi. Qubadlını azad etmək üçün, ilk növbədə, yüksəkliklər götürülməli idi. Çünki düşmən bu yüksəkliklərdən müntəzəm olaraq hərbçilərimizə atəş açırdı. Ona görə Qubadlı əməliyyatı xüsusi peşəkarlıq və fədakarlıq tələb edirdi. Azərbaycan Ordusu peşəkarlığı, fədakarlığı göstərdi.

Erməni vandalizmi təbii ki, Qubadlıdan da yan keçməmişdi. Tarixi-mədəni, dini abidələrimiz, yaşayış məntəqələrimiz işğal müddətində düşmən tərəfindən dağıdılaraq yararsız vəziyyətə salınmışdır. Ordumuz tərəfindən işğala son qoyulması ilə Qubadlıdakı tarixi memarlıq abidələrimiz də düşmən əsarətindən xilas oldu.

Məlumdur ki, ərazisi 802 kv.km olan Qubadlının 94 yaşayış məntəqəsi, o cümlədən, 1 şəhər və 93 kəndi var. 31 avqust 1993-cü ildə ermənilər tərəfindən işğal edilmişdi. İşğal ərəfəsində isə əhali 30 minə qədər olub. İşğala qədər Qubadlının iqtisadiyyatının əsasını taxılçılıq, heyvandarlıq, tütünçülük, baramaçılıq və üzümçülük təşkil edib. 2 üzümün ilkin emalı zavodu, 1 yağ-pendir zavodu, 1 asfalt zavodu, 1 inkubator-quşçuluq fabriki, 1 balıqyetişdirmə vətəgəsi, 1 daş karxanası, 1 mərmər sexi, Azərbaycan "Neftqazavtomat" təcrübə zavodunun filialı və s. fəaliyyət göstərib. Ümumiyyətlə, Qubadlı rayonunda 62 idarə və müəssisə olub. Qubadlı rayonunda 61 ümumtəhsil məktəbi, o cümlədən, 33 orta, 16 səkkizillik, 12 ibtidai məktəb fəaliyyət göstərib.

Qubadlıda 180-ə qədər mədəni-maarif müəssisəsi olub. 84 kitabxana, 12 mədəniyyət evi və 44 klub, 7 avtoklub əhaliyə xidmət edib. Rayonda 2 uşaq-musiqi məktəbi də fəaliyyət göstərib.

Ümumilikdə işğal nəticəsində rayonda olan 6988 yaşayış evi, 1080 kənd təsərrüfatı obyekti, 32 rabitə, 86 səhiyyə, 180 mədəniyyət, 6 sənaye müəssisələri, 650 km avtomobil yolları, 9 körpü, 2 su anbarı, 150 kilometr magistral su xətləri, 4830 km elektrik xətləri, 165 kilometr magistral qaz boru xətti, 146 idarə, müəssisə binaları, 18 dəyirman, 4 su nasos stansiyası, 120 ədəd elektrik yarımstansiyası və transformator dağıdılıb, 13 365 hektar meşə sahəsi işğal altında qalmışdı.

Ermənilər 5 mindən çox nadir eksponat saxlanılan Qubadlı tarix-diyarşünaslıq muzeyini də talan ediblər. IV əsrə aid "Gavur dərəsi"ndəki ibadətgah, V əsrə aid "Qalalı" və "Göyqala" abidələri, 14-cü əsrdə tikilmiş "Dəmirçilər" Türbəsi, Hacı Bədəl körpüsü, Laləzar körpüsü, eləcə də Əyin, Yusifbəyli, Seytas, Qarağaclı, Xocamsaxlı kəndlərindəki digər tarixi abidələr işğal olunub. Erməni təcavüzü zamanı Qubadlı 238 şəhid verib, 146 nəfər əlil olub.

Artıq bu gün işğaldan azad olunan Qubadlıda yeni bir həyat başlanıb. "Qubadlı şəhəri demək olar ki, yerlə-yeksan edilib, bir salamat bina yoxdur", deyən Cənab Prezident sadəcə olaraq, erməni hərbçilərinin öz məqsədləri üçün bir neçə binadan istifadə etdiklərini bildirib: "Biz Qubadlı rayonunun bütün kəndlərini, o cümlədən Qubadlı şəhərini yenidən quracağıq". Vurğulayaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın bu əraziyə səfəri çərivəsində "Qubadlı" yarımstansiyasının açılışı olub. Xatırladaq ki, bu günə qədər Şuşa, Füzuli, Kəlbəcər, Cəbrayıl kimi ərazilərdən sonra Qubadlıda yeni yarımstansiya tikilib. Beləliklə, işğaldan azad edilmiş ərazilərin 80 faizi Azərbaycanın ümumi enerji sisteminə qoşulmaqla yanaşı, elektrik xətləri üzərindəki optik kabellər vasitəsilə yarımstansiya və rayonlardakı lazımi strukturlar internetlə təmin edilib. İşğaldan azad edilən digər rayonlardakı yarımstansiyalarda olduğu kimi, Qubadlıda da Dördüncü Sənaye İnqilabına uyğun olaraq intellektual enerjisistem şəbəkəsi konsepsiyası həyata keçirilərək müasir, dayanıqlı, tam rəqəmsallaşdırılmış yarımstansiya yaradılıb. Sovet vaxtında Qubadlı rayonunun ümumi istehlakının 12 meqavat olduğunu bildirən Cənab Prezident bu yarımstansiyanın 40 meqavata hesablandığını və lazım olarsa, onun gücünün iki dəfə artırıla biləcəyini bildirib: "Yəni, biz Qubadlının gələcək inkişafını belə görürük. Sovet vaxtında, işğala qədər Qubadlı rayonunun əhalisi haradasa 28 min idi, indi mənə verilən məlumata görə əhali 40 minə çatıb".

Bütün kəndlərin, şəhərin dağıdıldığı bildirən Cənab Prezident qubadlılıları buraya yerləşdirmək üçün əlbəttə ki, çox böyük işlər görüləcəyini diqqətə çatdırıb: "Burada infrastruktur işləri birinci sıradadır. İndi siz də gələndə gördünüz ki, çox geniş, dördzolaqlı yol çəkilir. Heç vaxt bu ölçüdə yol olmamışdır. Dar bir yol idi Zəngilandan Qubadlıya, Laçına. İndi biz Zəngilandan Qubadlıya, Laçına dördzolaqlı yol çəkirik ki, bu yoldan insanlar rahat istifadə etsinlər. Eyni zamanda, burada istehsal olunacaq məhsulları bazarlara vaxtlı-vaxtında, itkisiz çatdırmaq üçün imkan olsun".

### "HƏKƏRİ ÇAYI NƏİNKİ QUBADLININ, BÜTÜN AZƏRBAYCANIN, BİZİM BÖYÜK SƏRVƏTİMİZDİR"

Yaxın gələcəkdə Qubadlıda məktəblər, xəstəxanalar tikiləcək, yeni yaşayış binaları qubadlıların ixtiyarına veriləcək: "Sovet vaxtında daha çox fərdi evlər idi. Bir neçə beşmərtəbəli ev var idi. Bir-iki evin qalıqları qalıb. Ancaq Qubadlı şəhər kimi inkişaf etməlidir. Əlbəttə ki, düzgün planlaşdırma aparılarkən burada insanların rahat yaşaması üçün bütün şərait yaradılacaq. İqtisadi inkişafa gəldikdə, əlbəttə, rayon ictimaiyyəti də burada çox fəal iştirak etməlidir - həm bərpa işlərində, eyni zamanda, Qubadlının düzgün inkişaf konsepsiyasının işlənməsində". Rayonun böyük potensiala malik olduğunu qeyd edən Cənab Prezident buranın zəngin təbiəti, təbii sərvətləri olduğunu bildirib: "Qubadlı rayonu ərazisindən iki böyük çay keçir, Bazarçay düz şəhərin ortasından keçir. Həkəri çayı nəinki Qubadlının, bütün Azərbaycanın, bizim böyük sərvətimizdir. Çünki biz bu çaylardan məhrum idik. Həkəridən də, Bazarçaydan da, Bəsitçaydan da, Tərtər çayından da məhrum idik. Ermənilər bizi məhrum etmişdi. Bu, böyük sərvətdir. Özü də indiki şəraitdə ki, su resursları dünyada gələcəkdə əsas yeni, yaşayış üçün əsas resurs kimi artıq tanınır. Ona görə düzgün planlaşdırma aparılmalıdır, iqtisadi inkişaf, hansı sahələr inkişaf edəcək".

Bildiyimiz kimi, Qubadlının Baş Planı əsasında genişmiqyaslı layihələr həyata keçirilir. Qubadlı şəhəri beynəlxalq hava limanlarının tikildiyi Zəngilan və Laçın rayonları arasında yerləşməklə coğrafi mövqeyi və logistik imkanları baxımından strateji əhəmiyyətə malikdir. Növbəti 20 il ərzində şəhər ərazisinin 505 hektara, əhali sayının isə 14 min nəfərə çatdırılması planlaşdırılır.

Baş planın əsasında Qubadlının təbii imkanları nəzərə alınaraq şəhər parkları, meşə-parklar, çaykənarı bulvar, həmçinin ictimai bağlar şəhərin əsas simasını təşkil edəcək. Burada yerləşəcək yaşayış məkanlarının ərazi planlaşdırılmasında yaşıl sahələr, piyada əlçatanlığı nəzərə alınmış, çoxfunksiyalı zonaların, ortamərtəbəli və azmərtəbəli binaların, həmçinin həyətyanı sahəsi olan fərdi evlər üçün zonaların yerləri müəyyənləşdirilib. Baş planda şəhərin gündəlik həyat dinamikasını təmin etmək üçün müxtəlif zonalar arasında sıx bağlantıların təşkilinə xüsusi önəm verilib və bu məqsədlə əsas mərkəzi hissədə su kanalı boyunca piyada küçəsi, istirahət yerləri və interaktiv məkanlar nəzərdə tutulub. Sənədin başlıca konseptual əsaslarından olan nəqliyyat strategiyası isə aşağı sürətli hərəkət prinsipi üzərində qurulub. Şəhərdə piyada hərəkətinin prioritet olduğu küçələr, ictimai nəqliyyatın mübadilə mərkəzi və parklanma üçün ərazilər müəyyən edilib.

Baş plana əsasən şəhərin mərkəzi hissəsində evləri, iş yerlərini, istirahət, əyləncə və mədəni fəaliyyəti, sosial obyektləri bir mühitdə cəmləyən əlverişli şəraitin yaradılması planlaşdırılır. Şəhər üzrə tikinti sıxlığı mərkəzdən kənarlara doğru azalacaq. Orta mərtəbəli çoxmənzilli yaşayış binaları və ictimai tikililər mərkəzi hissədə, daha kənarlara doğru isə azmərtəbəli binalar və həyətyanı sahələrə malik fərdi evlər yerləşdiriləcək.

Şəhər ərazisində ümumi məşğulluğun təmin edilməsi bir neçə istiqamətdə aparılacaq. Yaxın 20 illik perspektiv üçün Qubadlıda bitkiçilik və ekoloji kənd təsərrüfatı, balıqçılıq və balıqyetişdirmə, müasir sənətkarlıq, yüngül sənaye, təbiət əsaslı aqro-turizm və digər sahələrin inkişafı planlaşdırılır. Beləliklə şəhərin memarlıq simasının formalaşmasında müasir və ənənəvi elementlərin vəhdətindən istifadə ediləcək, yaşıl şəhər obrazı yaradılacaq. Qubadlı İşğal və Zəfər muzeyləri kompleksi İşğal Muzeyi, Zəfər Muzeyi və dağıntılardan ibarət Memorial Parkdan ibarət olacaq. Kompleks təxminən 3 hektar ərazini əhatə edəcək.

**”QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR BÖLGƏLƏRİ NƏİNKİ AZƏRBAYCANIN, QAFQAZIN, DÜNYANIN ƏN GÖZƏL YERLƏRİNDƏN BİRİ OLACAQ”**

Bu gün reallaşan layihələr Qubadlının işıqlı gələcəyindən xəbər verir. Bildiyimiz kimi, dövlət başçısının Qubadlıya səfəri çərçivəsində Xanlıq-Qubadlı yolunun təməli qoyulub. Başlanğıcını Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun Xudafərin su anbarı yaxınlığından keçən hissəsindən götürən bu yolun uzunluğu 56,4 kilometrdir. Qubadlı-Eyvazlı avtomobil yolunun uzunluğu 26 kilometr, eni 7 metr olacaq. Bu yollar Prezident İlham Əliyev tərəfindən təsdiq olunmuş işğaldan azad edilmiş ərazilərin yenidən qurulması və bərpası layihəsi çərçivəsində tikilir. Dövlət başçısının tapşırığına əsasən, Qarabağın inkişaf planı nəzərə alınmaqla Xudafərin-Laçın və Xanlıq-Qubadlı avtomobil yolları dörd hərəkət zolaqlı olacaq. Yeni inşa olunan yollar işğaldan azad edilmiş Zəngilan, Qubadlı və Laçın rayonlarının ərazisindən keçir. Avtomobil yolu Qubadlı və Laçın şəhərləri də daxil olmaqla, bu rayonların 30-dan çox yaşayış məntəqəsini əhatə edir.

Qubadlıda görülən işlərdən söz açarkən, əlbəttə ki, Qubadlı rayonunda Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin açılışını da qeyd etməliyik. Məlumdur ki, işğaldan azad olunmuş ərazilərdə Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması üzrə fəaliyyətlər davam etdirilir. Azərbaycanın Ermənistanla dövlət sərhədinin Qubadlı və Laçın rayonları ərazisindən keçən hissəsinin mühafizəsini təmin edən Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin ərazisi 25 hektardır. Kompleksin döyüş texnikası parkında helikopterlər, ”HAROP”, ”Quzğun” və ”Qırğı” zərbəendirici pilotsuz uçuş aparatları, tank əleyhinə dəzgahlı qumbaraatanlar və idarə olunan raketlər, 120 və 82 millimetrlik minaatanlar, zenit qurğuları və digər müasir silah sistemləri mövcuddur. Hərbi hissə kompleksində qərargah binası, zabit-gizir və əsgər yataqxanaları, şəxsi heyət üçün lazımi şəraitlə təmin edilmiş iş otaqları, yeməkxana, yaşayış binaları, anbarlar və digər zəruri infrastruktur yaradılıb. Bu hərbi hissədə xidmətin yüksək səviyyədə aparılması, şəxsi heyətin döyüş qabiliyyətinin təkmilləşdirilməsi, peşəkar vərdişlərinin daha da inkişaf etdirilməsi üçün hərtərəfli şərait yaradılıb.

”Qarabağ və Şərqi Zəngəzur bölgələri nəinki Azərbaycanın, Qafqazın, dünyanın ən gözəl yerlərindən biri olacaq - ən müasir, ən rahat, ən gözəl. Buranın təbiəti, gözəl mənzərələri, yaşıllıqlar, bulaqlar müasir və eyni zamanda, ənənəvi üslubda inşa edilən binalarla tamamlanır. Elə bir gözəl şəhər yaradılır ki, əminəm, hər birimiz, hər bir azərbaycanlı bununla fəxr edəcək. Bir daha demək istəyirəm, biz azad edilmiş bütün torpaqlarda genişmiqyaslı proqramları icra edirik”, - deyə Azərbaycan Prezidenti bildirib.

***Zümrüd BAYRAMOVA***



**Elçin Bayramlı**

# Maaşlar niyə gec verilir?

***Son vaxtlar müzakirə olunan və şikayət edilən vacib məsələlərdən biri də müxtəlif müəssisələrdə, idarələrdə çalışan işçilərin maaşlarının gecikdirilməsi və hər ay fərqli vaxtlarda ödənilməsidir. Məsələn, işçi maaşını bu dəfə ayın 3-ü alır, növbəti dəfə 5-i alır, o biri ay 10-u alır. Bu vəziyyət bir çox işçilər üçün ciddi problem yaradır. Çünki insanlar xərclərini hesablayır, çoxunun kreditləri var. Məsələn, düşünür ki, mən hər ayın 5-nə qədər maaş alıram, kredit götürür, krediti də 5-nə qədər ödəməlidir. Maaş gec veriləndə işçinin kredit ödəməsi də gecikir və cərimə yazılır.***

Bütün müəssisələrdə eyni vaxtda maaşın verilməsi, əslində prinsipcə mümkündür, amma praktikada bu, bir az çətindir. Şərt deyil ki, bütün ölkə bir gündə maaş alsın, bu, heç nəyi dəyişmir. Sadəcə burada müəyyən bir maksimal müddət qoyula bilər ki, məsələn, ay başa çatdıqdan 3 gün ərzində maaş ödənməlidir. Hansısa müəssisə 1 gün ərzində verə bilər, hansısa 2gün ərzində verə bilər, hansısa 3 gün ərzində verə bilər. Lakin 7 gün, 10 gün gecikmələr insanlar üçün problem yaradır.

Burada başqa məsələlər də var, özəl müəssisələrlə dövlət müəssisələrinin fərqləri var, maliyyə hesabları var, bank əməliyyatları var, bəzən 1-2 gün üzrlü səbəbdən o yan-bu yan ola bilər, amma bu 3 gündən artıq olmamalıdır.

Ay bitən kimi, növbəti 3 gün ərzində maaşlar ödənməlidir. Əksər insanlar aydan aya maaşı çatdıra bilmir, ayın axırına yaxın maaşı qutarır və çətin vəzətdə qalır, ona görə də çalışır ki, maaşı tez alsın. Maaş 5 gün, 10 gün gecikəndə, o daha da çətin vəzətdə düşür. Borca girməli, nisyə mal almalı, kreditlərinə cərimə ödəməli olur.

Ona görə də, maaşların eyni gündə verilməsi ilə bağlı standartlaşma eləmək olar. Ölkə üzrə ümumi qərar verilə bilər ki, məsələn, 3 gün ərzində bütün müəssisələrdə, idarələrdə, istər özəl, istər dövlət sektorunda əmək haqqı ödənilməlidir. Bunun belə olması daha rahat olar insanlar üçün. Hamı standart, həmişə eyni vaxtda maaş alsa, onda bütün xərclərini, kreditlərini və s. buna uyğunlaşdıra bilərlər.

Bəzi şirkətlərdə, müəssisələrdə işləyənlərdən müəyyən məlumatlar gəlir ki, rəhbərlik maaşları, məsəl üçün 10 gün gec verməklə, böyük maliyyə vəsaitlərini banklarda daha çox saxlamaqla müəyyən qədər faizlər əldə edə bilirlər. İl ərzində hər ay tutaq ki, 10 gün gecikməyə ümumi maliyyənin bankda daha çox qalması gündəlik faizlərin gəlməsinə səbəb olur. Kimlərsə bundan gəlir əldə edir. Belə hallar da var və ola bilər. Bu baxımdan, konkret tələb qoyulmalıdır, normativ qoyulmalıdır ki, mütləq 3 gün ərzində maaşlar ödəməlidir. Belə bir tələb qoyulsa, həm narazılıq aradan qalxar, həm qarşılıqlıq olmaz, həm də ki, müəyyən bank maxinasiyaları, dövriyədə pul saxlamaq, faiz əldə eləmək üçün bəzi müəssisə və şirkətlərin bu əməliyyatları baş tutmamış olar.

Hər bir halda işçinin ay başa çatanda maaşını almaq onun hüququdur. Bir çox ölkələrdə həftəlik maaş sistemidir, bitən kimi həftənin maaşını alırlar. Bizdə aylıqdırsa, heç olmasa, ay bitən kimi əməkhaqqı verilməlidir. İndi onsuz da bütün əməliyyatlar elektrondur, bank vasitəsilə köçürmələrlə edilir. Bu halda burada texniki problem olmamalıdır. Mühasibatlıq işi elə qurmalıdır ki, işçilər maaşlarını vaxtında ala bilsinlər.

# “Rusiyada azərbaycanlıların vəziyyətini faciəvi adlandırmaq doğru deyil”

“Rusiyada yaşayan azərbaycanlı miqrantların sayı ilə bağlı müxtəlif məlumatlar mövcuddur. Rəsmi rəqəmlərə görə, onların sayı təxminən 40-50 min civarındadır. Bununla belə, qeyd etmək lazımdır ki, Rusiyada yaşayan azərbaycanlıların böyük əksəriyyəti artıq Rusiya vətəndaşlığı alıblar və uzun illərdir həmin ölkənin sosial-iqtisadi həyatında mühüm rol oynayırlar. Onların Rusiyadakı mövcudluğu həm iqtisadi, həm də mədəni sahədə öz təsirini göstərməkdədir”. Bu sözləri SİA-ya açıqlamasında Sosial Tədqiqatlar Mərkəzi Media və Kommunikasiya Departamentinin rəhbəri Əziz Əlibəyli deyib.





Onun sözlərinə görə,bəzən Rusiyada yaşayan azərbaycanlıların sayı və təsiri ilə bağlı şişirdilmiş məlumatlar dövriyyəyə buraxılır. Əslində, bu icma Rusiya cəmiyyətinə inteqrasiya olunmuş, fəaliyyətini qanuni əsaslarda quran və ümumilikdə cəmiyyətə töhfə verən bir sosial qrup kimi xarakterizə olunur: ”Onların vəziyyətini ”faciəvi” kimi qiymətləndirmək doğru olmaz.

Lakin son illərdə Rusiyanın miqrasiya siyasətinin sərtləşməsi bu ölkədə yaşayan azərbaycanlıların həyatına müəyyən mənfi təsirlər göstərməyə başlayıb. Xüsusilə Cənubi Qafqaz regionuna qarşı sərgilənən yeni siyasi xətt nəticəsində, bəzi hallarda azərbaycanlılara və ümumilikdə Qafqaz mənşəli şəxslərə qarşı ayrı-seçkilik və təzyiq halları artıb. Bu isə, öz növbəsində, Rusiyada yaşayan azərbaycanlıların sosial inteqrasiyasını çətinləşdirir, onların ictimai həyatda tam iştirakına və milli kimliklərini qorumaq imkanlarına müəyyən məhdudiyyətlər yaradır.

Təəssüf ki, bəzi hallarda Rusiya ərazisində yaşayan Azərbaycan vətəndaşlarının hüquqları da pozulur. Onlar bəzən öz qanuni müdafiə imkanlarından tam şəkildə istifadə edə bilmirlər. Bu isə təkcə azərbaycanlı icmasına deyil, bütövlükdə Rusiyanın ictimai sabitliyinə də mənfi təsir göstərir. Miqrasiya siyasətində sərt yanaşmaların tətbiqi həmin ölkədə yaşayan azərbaycanlılara qarşı təzyiqləri artırır ki, bu da, təbii olaraq, Azərbaycan-Rusiya münasibətlərinə müəyyən gərginlik gətirə bilər.

Azərbaycan dövləti bu məsələyə olduqca həssas yanaşır. Ölkə rəhbərliyi və müvafiq dövlət qurumları, o cümlədən səfirliklər və konsulluqlar Rusiyada yaşayan azərbaycanlıların hüquqlarının müdafiəsi, sosial və mənəvi rifahının qorunması istiqamətində ardıcıl tədbirlər həyata keçirir. Azərbaycan dövləti üçün soydaşlarımızın harada yaşamasından asılı olmayaraq, onların hüquqlarının təmin edilməsi strateji məsələdir. Eyni zamanda, bu istiqamətdə Azərbaycanla Rusiya arasında imzalanmış hökumətlərarası sazişlər və beynəlxalq müqavilələr də mühüm rol oynayır. Həmin sənədlərdə vətəndaşların hüquq və azadlıqlarının qorunması, insan hüquqlarının pozulmasının qarşısının alınması açıq şəkildə öz əksini tapır.

Fikrimcə, Rusiyada yaşayan azərbaycanlı icması kifayət qədər güclü lobbi potensialına malikdir. Onların arasında yüksək təhsilli, aktiv ictimai mövqeyə sahib şəxslər çoxdur və bu, icmanın Rusiyada nüfuzunun artmasına səbəb olur. Eyni zamanda, səmərəli fəaliyyət göstərən diaspor qurumları azərbaycanlıların birliyinin qorunmasında mühüm rol oynayır. Lakin son dövrlərdə Rusiya tərəfinin bu diaspor təşkilatlarının bəzilərinə nəzarəti gücləndirmək və ya idarəetməni mərkəzləşdirmək cəhdləri müşahidə olunur. Bu, müəyyən mənada, Azərbaycan üçün risklər yarada bilər.

Buna baxmayaraq, Azərbaycan dövləti bu kimi cəhdlərə biganə qalmır və həm diplomatik, həm də ictimai səviyyədə müxtəlif tədbirlər görür. Məqsəd, Rusiyada və digər ölkələrdə yaşayan soydaşlarımızın milli birliyini qorumaq, onların Azərbaycanın dövlət maraqlarına uyğun fəaliyyət göstərməsini təmin etməkdir. Rusiyada yaşayan azərbaycanlıların taleyi, hüquqları və təhlükəsizliyi Azərbaycan dövləti üçün mühüm prioritet olaraq qalır. Azərbaycan bu məsələdə ardıcıl siyasət yürüdür və istər beynəlxalq, istər ikitərəfli münasibətlər səviyyəsində soydaşlarımızın hüquqlarının qorunmasını təmin etməkdə davam edir”.

***Günel Fərzəliyeva***

# “Azərbaycan artıq təşəbbüskar və yönverici qüvvə kimi çıxış edir”



“Prezident İlham Əliyevin Qazaxıstana səfəri və bu səfər çərçivəsində imzalanan sənədlər Azərbaycan-Qazaxıstan münasibətlərində yeni bir mərhələnin başlanğıcını ifadə edir. Bu sənədlər iki qardaş ölkə arasında təkcə diplomatik yaxınlığı deyil, həm də strateji əməkdaşlığın praktik müstəviyə keçməsini göstərir. İmzalanan razılaşmaların mahiyyəti göstərir ki, Bakı və Astana əlaqələrini artıq təkcə siyasi dialoq səviyyəsində deyil, iqtisadi, enerji, nəqliyyat və texnoloji əməkdaşlıq istiqamətlərində də sistemli şəkildə dərinləşdirmək niyyətindədir”. Bu sözləri SİA-ya açıqlamasında Azad Vətən Partiyasının sədri Akif Nağı deyib.

Onun sözlərinə görə, bu səfər həm də bir simvolik məna daşıyır: Azərbaycan və Qazaxıstan türkdilli dövlətlər ailəsinin iki aparıcı üzvü olaraq, regionda sabitliyin və inteqrasiyanın mühüm dayaqlarından biridir. Prezident İlham Əliyev və Prezident Kasım-Jomart Tokayev arasında əldə olunan razılaşmalar Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın daha da gücləndirilməsinə də xidmət edir. Bu, həm də türk dünyasının vahid iqtisadi və nəqliyyat məkanına çevrilməsi prosesini sürətləndirə bilər: ”İmzalanan sənədlər arasında enerji sahəsində birgə layihələrə, investisiya təşviqinə, tranzit və logistika imkanlarının genişləndirilməsinə, rəqəmsal transformasiya və informasiya texnologiyaları üzrə əməkdaşlığa dair razılaşmalar xüsusi əhəmiyyət daşıyır.

Qazaxıstanın zəngin enerji resursları və Azərbaycanın mövcud nəqliyyat infrastrukturu bir-birini tamamlayır. Xüsusilə Orta Dəhliz layihəsinin inkişafı ilə bağlı tərəflərin razılığı regionun iqtisadi xəritəsində yeni strateji istiqamət yaradır. Bu, həm Çin-Avropa ticarət əlaqələrinə alternativ və təhlükəsiz marşrutların formalaşmasına, həm də Azərbaycanın tranzit ölkə rolunun daha da güclənməsinə gətirib çıxaracaq. Bununla yanaşı, imzalanan sənədlər regional təhlükəsizliyə və sabitliyə də mühüm töhfə verir. Azərbaycan və Qazaxıstan hər zaman sülh, dialoq və qarşılıqlı hörmət prinsiplərini rəhbər tutaraq regional əməkdaşlıq modelini təşviq ediblər. Bu baxımdan, tərəflərin yeni razılaşmaları həm Cənubi Qafqazda, həm də Mərkəzi Asiyada sabitliyin qorunmasına, iqtisadi əməkdaşlığın təhlükəsiz əsaslarda inkişafına yönəlib. Siyasi baxımdan bu səfər Azərbaycanın çoxşaxəli xarici siyasətinin növbəti uğurlu təzahürüdür. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bu gün regionda balanslaşdırılmış və praqmatik siyasət aparır, tərəfdaş ölkələrlə münasibətlərini qarşılıqlı maraqlar əsasında formalaşdırır. Qazaxıstanla imzalanan sənədlər də bu siyasətin davamıdır - onlar Azərbaycanı həm iqtisadi, həm də diplomatik baxımdan daha da gücləndirəcək.

Ümumilikdə, Qazaxıstan səfəri göstərdi ki, Azərbaycan regional əməkdaşlıqda artıq təşəbbüskar və yönverici qüvvə kimi çıxış edir. İmzalanan sənədlər yalnız bu günün deyil, gələcək onilliklərin də əməkdaşlıq xəritəsini müəyyənləşdirir. Bu sənədlərin icrası nəticəsində həm Azərbaycan, həm də Qazaxıstan üçün yeni investisiya imkanları, daha səmərəli tranzit marşrutları və qarşılıqlı iqtisadi asılılığın dərinləşməsi reallaşacaq. Bu isə bütövlükdə Türk dünyasının güclənməsi və Avrasiya regionunda sabitliyin möhkəmlənməsi baxımından strateji əhəmiyyət daşıyır”.

***Ziya Hikmətoğlu***

# ”Sülh prosesinin Qərb vasitəçiliyi ilə irəliləməsi üçün yeni diplomatik imkanlar açdı”

“Prezident İlham Əliyevin Düşənbəyə səfəri, ondan öncə baş tutmuş Kopenhagen, Qəbələ və Misir görüşləri Azərbaycanın çoxşaxəli, çevik və strateji yönümlü xarici siyasət kursunun ardıcıl davamı kimi dəyərləndirilə bilər. Bu səfərlər bir-birindən fərqli coğrafi məkanlarda keçirilsə də, ortaq məqam - Azərbaycanın beynəlxalq arenada həm regional, həm də qlobal səviyyədə balanslaşdırılmış və müstəqil diplomatiya yürütməsidir”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Züriyyə Qarayeva deyib.O bildirib ki, Kopenhagen görüşü Azərbaycanın Avropa ilə dialoqun bərpası və yeni enerji təhlükəsizliyi gündəliyinin formalaşdırılması baxımından əhəmiyyətli idi: ”Prezident İlham Əliyevin burada Fransa və digər Avropa liderləri ilə apardığı müzakirələr, Azərbaycanın Qərb istiqamətindəki siyasətində ”bərabər tərəfdaşlıq və qarşılıqlı hörmət” prinsipinin prioritet olduğunu bir daha göstərdi. Bu, həm də Cənubi Qafqazda sülh prosesinin Qərb vasitəçiliyi ilə irəliləməsi üçün yeni diplomatik imkanlar açdı.Qəbələ görüşü isə Türk Dövlətləri Təşkilatı çərçivəsində inteqrasiyanın dərinləşdiyini nümayiş etdirdi. Burada aparılan müzakirələr, xüsusilə Zəngəzur dəhlizi, nəqliyyat əlaqələri və vahid iqtisadi məkanın formalaşdırılması istiqamətindəki təşəbbüslər, Azərbaycanın türk dünyası ilə geostrateji əlaqələrini daha güclü koordinasiyaya yönəltdiyini göstərir. Bu, həm də ölkənin Şərq-Qərb nəqliyyat arteriyalarında mərkəzi oyunçu statusunu möhkəmləndirir.Misir sammiti zamanı Prezident İlham Əliyevin sülh və humanitar mövqedən çıxış etməsi Azərbaycanın beynəlxalq səviyyədə ”sabitlik ixrac edən” dövlət obrazını gücləndirdi. Qəzza məsələsində taraz və humanist yanaşma, Azərbaycanın BMT çərçivəsində etibarlı



və etimad doğuran tərəf kimi qəbul edilməsinə xidmət edir. Nəhayət, Düşənbə səfəri bu diplomatik zəncirin Mərkəzi Asiya həlqəsini tamamladı. MDB sammitində iştirak, Azərbaycanı həm türk dünyası, həm də postsovet məkanı arasında körpü kimi təqdim edir.

Bu, Azərbaycanın çoxtərəfli diplomatiyasının əsas strategiyası - ”müxtəlif qütblərlə balanslı əməkdaşlıq” konsepsiyasının canlı nümunəsidir. Ümumilikdə, bu görüşlər göstərir ki, Azərbaycan artıq yalnız regional deyil, həm də qlobal diplomatik gündəliyə təsir edən aktiv oyunçuya çevrilib. İlham Əliyevin səfərləri ölkənin xarici siyasətində praqmatik realizm, strateji çeviklik və müstəqil qərarvermə xəttinin davamlılığını təsdiqləyir”.

***Səbinə Hüseynli***



Lalə Mehralı

# Qiyamətin əlaməti və ya normallaşdırılan anormallıq

***Çox yox, 10-15 il əvvəllə müqayisədə dünyamız nə qədər dəyişib, deyilmi? Bir fikirləşin, çox az müddət ərzində qeyri-normal olan bütün davranışlar adi hala çevrildi, anormal bildiyimiz nə varsa cəmiyyət tərəfindən dəstəkləndi. Əvvəl bizə anormal gələn çox şey indi tamamilə normal gəlir, hətta əvvəl əksini düşündüyümüz üçün bəzən özümüzə təəccüblənirik.***

Eynicinsli nikahlar da artıq normallaşdırılan anormallıqlardandır. Yeni nəsil üçün bu sıradan, normal vəziyyətdir. Eynicinsli insanların evliliyinə icazə vermək bütün əxlaqi dəyərlərə tüpürmək deməkdir. Bunun müzakirəsi belə aparılmamalıdır, mətbuata, efirlərə çıxarılması belə yolverilməzdir. Müzakirə edib normallaşdırmaq belə təhlükəlidir. Necə ki, bir çox ölkədə müzakirə edə-edə normallaşdırdılar.

Elə bilirsiniz bizim cəmiyyətdə hər şey normaldır? Bir qisim adam var ki, onlar çoxdan belə bir müzakirə açılmasını gözləyir, onlara qığılcım yetər ki, eynicinsli nikahları normallaşdırsınlar. Efirdə özünə ər, ya arvad axtaranlar, arvadını başqa kişi ilə tutub videosunu çəkib efirdə nümayiş etdirənlər, bir-birinin bütün paxırını milyonların gözü önündə açıb sonra heç nə olmamış kimi həyatlarına davam edənlər - görün nələr normallaşdırılıb bizə sırındı illər ərzində? Fərqindəsinizmi, təəccüb hissimizi itirmişik əksəriyyətimiz. Biz daha nələr görəcəyik? Daha immunitet yaranıb bədənimizdə, əvvəl bizi dəhşətə gətirən şeylər indi normal gəlir. Qeyri-normal vəziyyətlər normallaşdıqda, anormal davranışlara göstəriləcək reaksiyalar da yoxa çıxır.

Təbii ki, normal evliliyin, ailələrin hazırkı vəziyyətindən narahat olmaq üçün çoxlu səbəblərimiz var. Evlilik nisbətləri aşağı düşüb, boşanmalar pik həddədir, tək valideynli ailələrin və nikahdankənar uşaqların sayı sürətlə artmaqdadır. Hansısa qüvvələr nikahın əhəmiyyətinin azalması, nikahdankənar birgə yaşamanın, nikahdankənar cinsi əlaqədə olmağın, nikahdankənar uşaq dünyaya gətirib böyütməyin, nikahın baş ağrısı və vaxt itki olmasının təbliğatını aparır.

Eynicinsli nikahların leqallaşdırılması bir çox cəmiyyətdə niyə bu qədər müdafiə edilir, bilirsinizmi? Bütün milli-mənəvi-əxlaqi dəyərləri öldürmək, məhv etmək, silmək üçün. Eyni cinsli evliliklərin sərbəst edilməsi halını təsəvvür edin. İnsanlar hər cür abırsızlığa qol qoyacaq. Əmin olun, öz iti ilə evlənənlər də olacaq. İtlərin pasportu olduğu üçün bu, o qədər də imkansız olmayacaq. Bəli, qiyamət çox yaxındır. Qır qazanı, qıl körpüsü-bunlar hamısı boş şeylərdir, əsas qiyamət iki əcaib insanla bir evdə böyüyən uşağın darmadağın olmuş, təcavüz olunmuş psixologiyasında baş verir! Bu, ailə deyil, bu, nikah deyil, bu heç insani vəziyyət də deyil.

Eynicinsli evlilik məsələsinin təbliğat mexanizmi olmamaq üçün mətbuatın, media orqanlarının üzərinə böyük məsuliyyət düşür. Bu cür müzakirələrin aparılmasına imkan verməməli, normallaşdırılmasına etiraz etməliyik. Zamanında müdaxiə edə bilsəydik bu gün nə evli adamlardan uşaq doğanlar normallaşmazdı, nə vətəndaş nikahında yaşayan adamlara adi baxmazdıq, nə də efirdə fəxrlə bu barədə danışanlar olmazdı. Eynicinsli nikahların da yolu düzəldilir, zamanla o yol hamarlanacaq, daşları təmizlənəcək, asfaltı döşənəcək və beləcə vəziyyət normallaşacaq.

Yaradılışın qanunudur, təkamül ağacı hər zaman hər hansı bir ”azlıq” qrupunun hüquqlarını ”çoxluq” mövqeyində olanlara qarşı müdafiə edir. Şərait, şərtlər, imkanlar buna təkan verir. Dini azlıqlar çoxluğa qarşı müdafiə olunur, milli azlıqlar çoxluğa qarşı müdafiə olunur və bunlar normaldır. Lakin normal ailə münasibətlərini kənarlaşdırılıb əvəzində heç bir əxlaqi dəyərə, mənəvi normalara sığmayan qadının qadınla, kişinin kişi ilə evliliyi normallaşdırılır. Bu, təhlükənin ilk sədasıdır, zəlzələnin ilk titrəyişidir, sunamidən öncəki çör-çöp axınıdır. Bu hələ jurnaldır, kino qabaqdadır...

# Çin dünyanın əsas güc mərkəzinə çevrilir

***Azərbaycan bir sıra xarici ölkələrlə iki və çox tərəfli əlaqələrə, əməkdaşlıq münasibətlərinə malikdir. Azərbaycanın dostluq və müttəfiqlik münasibətləri üzrə əlaqələr qurduğu dövlətlərdən biri də dünyanın əsas güc mərkəzlərindən biri olan Çin Xalq Respublikasıdır. Çin Xalq Respublikası ilə əlaqələrin inkişaf etdirilməsi hər iki tərəfin xüsusi maraq göstərdiyi prioritet istiqamətlərdən hesab edilir. Artıq iki tərəf arasında münasibətlər 30 ilə yaxındır ki, bir-birinə hörmət, dərin inam və etimad əsasında davam etdirilir. Azərbaycanla Çin arasında bütün sahələr üzrə, o cümlədən iqtisadi, elmi, təhsil, mədəniyyət və digər istiqamətlərdə müqavilələr imzalanıb. 2025-ci ilin 6 ayının göstəricilərinə görə, Azərbaycan ilə Çin arasında əmtəə dövriyyəsinin həcmi əvvəlki illə müqayisədə 25,4 faiz artıb və 4,2 milyard ABŞ dollar olub.***



Bununla da Çin Azərbaycanın 4-cü ən böyük ticarət tərəfdaşına çevrilib. Çinin ölkəmizin xarici ticarət dövriyyəsindəki payı 7,9 faizə çatıb. Hazırda Azərbaycanda Çin kapitalı ilə 386 şirkət qeydə alınıb. Onlardan 324-ü ölkəmizdə aktiv fəaliyyət göstərir. Bunla yanaşı Azərbaycan Çinin Orta Dəhlizlə bağlı təşəbbüslərini hər zaman dəstəkləyir və bu istiqamətdə görülən işlər onu deməyə əsas verir ki, Orta Dəhlizlə bağlı nəqliyyat infrastrukturunun bütün vacib elelementləri başa çatmaqdadır. Əlaqələrin yüksələn xətlə inkişaf etməsinin nəticəsi olaraq Azərbaycanla Çin arasında viza rejimi ləğv edilib, hər iki ölkənin vətəndaşları sərbəst şəkil də bir-birinin ölkələrinə səfərlər edə bilərlər. Təbii ki, əlaqələrin qurulması Ulu Öndərimiz Heydər Əliyevin bilavasitə təqdim etdiyi layihələr, irəli sürdüyü ideyalar əsasında formalaşıb və bu gün də uğurla davam etdirilir. 1994-cü ilin martında Ümummilli Lider Heydər Əliyev Çinə səfər etmiş, səfər zamanı hər iki dövlətin xalqlarının maraqlarına xidmət edən müqavilələr imzalanmışdır.





## Çinin xarici ticarət dövriyyəsi 4,73 trilyon dollara çatıb

Çin əhalisinə və ərazisinə görə dünyanın nəhəng dövlətlərindən biri olmaqla yanaşı həm də, iqtisadi, siyasi, hərbi cəhətdən aparıcı ölkələrdəndir. Çin lideri Si Cinpin ölkəsini dominant güc olmaq və şirkətlərini birinci yerdə yerləşdirməyi hədəfləyən "Made in China 2025" proqramını işə salıb. Bu isə Çin iqtisadiyyatının genişlənməsi və daha da inkişaf etməsi deməkdir. Çinin xarici ticarət dövriyyəsi 2025-ci ilin yanvar-sentyabr aylarında ötən ilin eyni dövrü ilə müqayisədə 4 faiz artaraq 33,61 trilyon yuana (təxminən 4,73 trilyon dollar) çatıb. Bu barədə Dövlət Şurasının İnformasiya Ofisində keçirilən mətbuat konfransında Çinin Baş Gömrük Administrasiyası açıqlama yayıb. Hesabat dövründə Çinin ixracı 7,1 faiz artıb, idxalı isə 0,2 faiz azalıb.

Çinin xarici ticarətinin yarıdan çoxu (57,8 faiz) Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq Təşkilatına (APEC) daxil olan ölkələrin payına düşür. "Kəmər və yol" ölkələri ilə ticarət 6,2 faiz çoxalaraq 17,37 trilyon yuana çatıb. Ümumi daxili məhsulun (ÜDM) dəyərinə görə dünyada ikinci olan Çinin iqtisadiyyatının qlobal iqtisadi-ticari əlaqələrə təsiri olduqca böyükdür. Təsadüfi deyil ki, bir sıra təhlil mərkəzlərinin dünya iqtisadiyyatı ilə bağlı proqnozları Çin iqtisadiyyatının inkişafı və onun xarici ticarət proqnozlarına əsaslanır.

Son illərə qədər beynəlxalq aləmdə güc mərkəzləri kimi tanınan ABŞ, Rusiya, Fransa, Böyük Britaniya və digər dövlətlər Çinin sürətlə iqtisadi, hərbi cəhətdən sürətlə inkişaf etməsindən ciddi narahatçılıq keçirməyə başlayıblar. Hətta ABŞ Çinin iqtisadiyyatda, sosial sahədə, texnoloji yeniliklər də genişmiqyaslı üstünlüklərinə zərər vermək ümidi ilə bu ölkəyə noyabr 1-dən 100 faizlik gömrük rüsumları tətbiq edir. ABŞ Prezidenti Donald Tramp bəzi istiqamətlərdə Çinlə ticarətin dayandırıla biləcəyini bildirib. Tramp Çinin ABŞ-dən soya alışı ilə bağlı qəsdən maneələr yaratdığını və bunun "düşmənçilik xarakterli iqtisadi addım" olduğunu vurğulayıb: " ABŞ bitki yağı və digər məhsulların istehsalını daxili imkanlarla təmin edə bilər".

## Makron və Merts Çinin artan hərbi, iqtisadi gücündən təşviş keçirdiklərini gizlətmirlər

Almaniya Kansleri Fridrix Merts ölkə parlamentində çıxış edərkən bildirib ki, Avropa rəqabət qabiliyyətini tezliklə bərpa etmək üçün hərəkət etməzsə, o, qlobal iqtisadi nəhənglərin ABŞ və Çinin əlaltısına çevriləcək və müstəqilliyini itirəcək. Fransa Prezidenti Emmanuel Makron Avropa Birliyini Çinin iqtisadi təzyiqindən qorunmaq üçün ən güclü iqtisadi aləti olan "ticarət bazukası"nı tətbiq etməyə çağırıb. O, Pekinin artan ticarət təzyiqinin qarşısının alınması üçün Avropa Komissiyasını Avropa bazarını "əlaqəli şəkildə müdafiə etmək" üçün "araşdırma başlatmağ"ın vacibliyini söyləyib. Makron Çinin yüksək texnologiyalı sənaye sahələri üçün vacib olan nadir torpaq minerallarının ixracına qoyduğu son məhdudiyyətlərdən narahatdır. Makron xəbərdarlıq edib ki, bu cür hərəkətlər "avropalıların muxtar istehsalını davam etdirmək qabiliyyətini şübhə altına alır".

Fransa prezidenti siyasi dairələrdə qeyri-rəsmi olaraq "ticarət bazukası" ləqəbi ilə tanınan Məcburiyyətə Qarşı Alətin (ACI) tətbiqini təklif edir. Strateji sənaye sahələrindən əlavə, Makron həmçinin Avropanın kiçik və orta müəssisələrinin gələcəyinin təhlükə altında olduğunu söyləyib.

O, Çindən AB-yə böyük miqdarda kiçik bağlamaların axınının 2024-cü ilə qədər 4 milyarda çatacağını və yerli biznes üçün rəqabətsiz şərait yaratdığını qeyd etdi. Fransa prezidentinin sözlərinə görə, Almaniya kansleri Fridrix Merts bu məsələnin həlli yollarını axtarmaqda "son dərəcə fəal" olub. Makrona görə, Çinin hərəkətlərinə effektiv cavab verməyin əsas maneəsi AB daxilində vahid mövqenin olmamasıdır. "Hazırda bunu görmürük", - deyə o bildirib.

## Çinin iqtisadi güc mərkəzinə çevrilməsinin səbəbi

Araşdırmalar əsasən demək olar ki, Çin Xalq Respublikasının iqtisadi dirçəlişi əslində 1978-ci ildə, Mao Zedonqundan sonra hakimiyyətə gələn Den Syaopin dövründən başlayıb. Onun komandasına "qızıl qəfəsdəki quş" konsepsiyasını hazırlayan maliyyəçi Çen Yun daxil idi. Quş bazar iqtisadiyyatını, qəfəs isə Çin Kommunist Partiyasını təmsil edir. Bu prinsip əslində "islahat və açılış" strategiyasının təməlini təşkil etdi. Maraqlıdır ki, Den Syaopin islahatlarında Rusiyanın Yeni İqtisadi Siyasətinin (NEP) təcrübəsindən istifadə etdi. 1926-cı ildə o, Moskvada Şərq Zəhmətkeşlərinin Kommunist Universitetində təhsil alıb. Çətin iqtisadi dövrdə Çin Sovet İttifaqından kömək istəyir. Lakin Moskvaya ümid etmək sadəlövhlük idi - Damanski adasındakı sərhəd münaqişəsi hadisələri hələ də yaddaşlarda təzə idi və hakim kommunist partiyaları arasında ideoloji polemika qızışırdı. Bəs kim kömək edəcəkdi? Qərb. ÇXR-in rəhbərliyini ələ keçirdikdən dərhal sonra, 1979-cu ilin əvvəllərində Den Syaopin ABŞ prezidenti Cimmi Karterlə görüşmək üçün Vaşinqtona səfər edir. O Kartera "qlobal antihegemon cəbhə" yaratmağı təklif edir. Den Vaşinqtondan qayıtdıqdan bir neçə həftə sonra orduya Sovet İttifaqına yaxın bir ölkə olan kommunist Vyetnama hücum əmri verir. Bundan sonra Çin Qərbdən hərtərəfli yardım almağa başlayır və bu, 30 il davam etdi.

1990-cı illərin əvvəllərindən Çində islahatlar həyat keçirilməyə başladı. İslahatlar əsasən sahil şəhərlərində - Şanxay, Kanton, Şençjen və Syamendə aparılırdı. Orada alman, Amerika, Yaponiya və Tayvan fabrikləri tikilirdi. Yeni kapital və texnologiya axını baş verdi və yeni sənaye sahələri yaradıldı. Kommunistlərdən qaçıb doğma şəhərlərinə və kəndlərinə qayıdan on minlərlə Tayvan sahibkarı Çinə gəldi. Onlar özləri ilə pul və bazar haqqında bilik gətirdilər. Onlar fabriklər, mağazalar və banklar açdı. Köhnə, ibtidai quyuların yerini almaq üçün yeni bir Qərb üslubunda "su təchizatı şəbəkəsi" yaradıldıqda, böyük Yapon, Amerika və Avropa korporasiyaları ona böyük məbləğdə pul yatırmağa başladılar.

Görülən fundamental işlər, həyata keçirilən əhəmiyyətli layihələrin nəticəsi olaraq Çin iqtisadiyyatı inkişafa nail oldu. Əgər bir neçə ilə qədər Çin avtomobilləri, texniki avadanlıqları keyfiyyətsiz məhsullar olaraq dəyərləndirlirdisə, bu gün artıq Çin avadanlıqları dünyanın ən keyfiyyətli avadanlıqları hesab olunur. Məhsulların dözümlü və keyfiyyətli olması fonunda qiymətlər dünyanın istənilən ölkəsinin vətəndaşını qane edir. Rəqabət mühitində Çin məhsulları ABŞ-ın və Avropanın mallarını üstələyir. Bu da haqlı , həm də təbii olaraq qarşı tərəfi qıcıqlandırır. Müxtəlif vasitə və üsullarla Çin iqtisadiyyatını, texnologiyasını sıradan çıxartmağa, ən azı zəifləmməyə çalışırlar. Lakin görünən ondan ibarətdir ki, Çin dövlətinin iqtisadi , hərbi, texnoloji siyasəti düzgün və əsaslı formada həyata keçirilir. Deməli, rəqiblər istəklərinə nail ola bilməyəcəklər.

Ekspertlərin gəldikləri qənaətə görə, 2030-cu ilə qədər Çin iqtisadiyyatı dünyada ən inkişaf edən iqtisadiyyat olaraq qalacaq. 2030 -cu ildən sonra vəziyyətin dəyişəcəyi və Çin iqtisadiyyatında çökmə prosesinin yaşanacağı qeyd olunur. Təbii ki, o tarixə qədər ABŞ-Çin-Avropa İttifaqı arasında qarşıdurma davam edəcək. Qarşıdurma isə infilyasiya yaradacaq. Bundan qorunmaq üçün dövlətlər tədbirlər görməyə maraqlı olmayacaq. Çünki onlar bütün qüvvələrini bir-birini iqtisadi cəhətdən çökdürməyə səfərbər ediblər.

**İLHAM ƏLİYEV**

# Növbəti köç karvanı Xocalıda

***İşğaldan azad edilmiş ərazilərə Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Böyük Qayıdış davam etdirilir. Respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Ağdamdan Xocalının Seyidbəyli və Daşbulaq kəndlərinə yola salınıb. Bu mərhələdə Seyidbəyli kəndinə 18 ailə - 61 nəfər, Daşbulaq kəndinə isə 8 ailə - 24 nəfər köçürülüb.***



İkinci Qarabağ müharibəsinin nəticələrinə əsasən, imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata uyğun olaraq Xocalı şəhəri Rusiya Sülhməramlı kontingentinin nəzarəti altında olub. 19 sentyabr 2023-cü ildə aparılan lokal xarakterli antiterror əməliyyatları nəticəsində azad olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev elə həmin ilin oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb.

Azərbaycan tarixi ədaləti bərpa edib və günahsız Xocalı qurbanlarının qisası döyüş meydanında alınıb. Artıq bu gün Xocalının qapısı üzümüzə açıqdır. Azərbaycan əzəli torpaqlarına sahibdir və Xocalıda ədalətin








təntənəsi yaşanılır, yeni bir dövrün başlanğıcı. Ərazi bütövlüyünü, suverenliyini təmin etmiş bir dövlətin müstəqillik tarixində ərazi bütövlüyü çərçivəsində baş tutmuş Zəfər Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində torpaqlarımızın erməni işğalından azad edilməsi tariximizə əbədi həkk olundu və əzəli yurd yerlərimizə sahib olduq. Xocalı yenidən qurulur. Bildiyimiz kimi, Prezident İlham Əliyev Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının təməlini qoymuşdu. Xocalı Soyqırımı Memorialı bəşəriyyətə qarşı yönəlmiş dəhşətli qətliam haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsində əhəmiyyətlidir.

Azərbaycan Prezidenti çıxışlarının birində bildirib ki, Xocalı soyqırımı abidəsinin, Memorial Kompleksinin yaradılması ilə bağlı uzun illər məsələlər müzakirə edilirdi, hətta "Ana fəryadı" abidəsinin yanında yer də seçilmişdi, layihə də hazırlanmışdı: "Ancaq hər il mən son təsdiqimi vermirdim. Çünki ürəyimdə saxlayırdım ki, bu Memorial Kompleks Xocalıda yaradılmalıdır və belə də oldu. Həmin o layihəni biz gətirdik və fevralın 26-da Xocalıda xocalılılarla bərabər Xocalı Memorial Kompleksinin təməli qoyuldu və burada inşa ediləcək. Bütün dünya da görəcək ki, erməni vəhşiliyi nədir, bu, həqiqətdir və bunu hər kəs bilməlidir. Ermənistan özü bunu etiraf etməlidir, özü bizdən üzr istəməlidir. Ancaq bunu etməklə ola bilsin ki, indiki Ermənistan rəhbərliyi - o vəhşilərin, vandalların, qaniçənlərin günahlarını bir qədər yumuş ola bilər. Bunu etməsə, məncə, Ermənistan özü heç vaxt ayağa dura bilməyəcək. Gərək, ilk növbədə, Ermənistan özü bu faciəni, bu cinayəti, hərbi cinayətini tanısın."

## TARİXİ ƏRAZİLƏRDƏ ETNİK TƏMİZLƏNMƏ VƏ SOYQIRIMI

33 il bundan əvvəl ermənilər bəşəriyyət tarixində ən ağır cinayətlərdən birini - Xocalı soyqırımını törətdilər. Ermənilərin şəhərə daxil olması nəticəsində Xocalını tərk etmək məcburiyyətində qalan köməksiz insan daşnaklar tərəfindən misli görünməmiş xüsusi amansızlıqla qətlə yetirildi. Düşmən hərbi texnika və qüvvə baxımından bir neçə dəfə çox olduğundan, Xocalı şəhəri işğal edildi. Az bir vaxt ərzində şəhərdə böyük miqyaslı yanğınlar baş verdi, şəhər tamamilə alova büründü. Evlərə-eşiklərə od vuruldu, torpaq al qana qərq edildi. Düşmən rəhm diləyən qocaya, xəstəyə, qadına aman vermədi. Uşaqlar valideynlərinin gözləri qarşısında xüsusi qəddarlıqla qətlə yetirilirdilər. Aramsız güllə yağışından qurtulub ayağıyalın, başıaçıq halda meşələrə, dağlara üz tutanların çoxusu yolda dondu, qar uçqunlarına düşdü. Bəşəriyyətin ən qədim yaşayış məskənlərindən olan Xocalı bir gecənin içərisində yerlə yeksan edildi. Qanlı qırğından sağ qalan əhali dağlara, meşələrə qaçdı. Dinc əhalini təqib edən silahlı ermənilər onları güllələyir, ələ keçənləri amansız işgəncələrlə divan tuturdular. Xocalı soyqırımının nəticələri çox dəhşətli idi. Cinayət cəzasız qalmamalıdır. Ermənistanın hərbi-siyasi təcavüzü dünya ictimaiyyəti tərəfindən ittiham edilməlidir.

Qeyd edək ki, o ərəfədəki vəziyyət birdən-birə yaranmayıb. Bu münaqişə ilə bağlı ermənilərin apardıqları hazırlığın nəticəsi idi. Xocalının coğrafi mövqeyi elə idi ki, bu rayona gəlmək üçün ermənilər yaşayan iki-üç məntəqədən keçmək lazım idi. Yəni Xocalı, bütünlükdə, erməni yaşayış məntəqələrinin mühasirəsində idi. Belə ki, 5 kilometr məsafədən şərqdə Əsgəran idi, yuxarıda - 10 km məsafədə Xankəndi və ətrafda 20-dən çox erməni yaşayış məntəqələri yerləşirdi. Xocalıya hücuma gələn xüsusi təlimatlanmış və silahlanmış canlı qüvvənin qarşısında Xocalı müdafiəçilərinin əlində bir əl pulemyotu, ov tüfəngləri, bir neçə avtomat silahı var idi. Son ana qədər vətəni tərk etmədilər. Vətəni qoyub çıxmaq xocalılıların heysiyyatına toxunurdu. Xocalı faciəsi zamanı şəhid olanların əksəriyyəti dinc əhali oldu. Yəni qocalar, uşaqlar və qadınlar.

Ermənilərin azərbaycanlılara qarşı yürüdülən soyqırımı siyasətinin tarixi əsrləri əhatə edir. Hadisələri ardıcıllıqla izləsək, görərik ki, Azərbaycanın başına gətirilən olaylar tarixdə, demək olar ki, eyni ssenari üzrə cərəyan edib. Artıq dərk edirik ki, ermənilər tarixən təkcə bizlərə qarşı deyil, bütün türk dünyasına qarşı torpaq iddiaları ilə çıxış edib və indi də etməkdədirlər. Belə ki, tarixi reallıqlar, bizə deməyə əsas verir ki, 1905-1907, 1918-1920, 1948-1953-cü illərdə Cənubi Qafqazdakı tarixi ərazilərində etnik təmizlənmə və soyqırımı siyasətinə məruz qalan yüz minlərlə Azərbaycan türkləri erməni daşnakları tərəfindən kütləvi surətdə qətlə yetirilmiş və ata-baba yurdlarından deportasiya edilmişlər.

Xocalı soyqırımının əsl hüquqi qiymətini alması və dünyanın belə bir cinayətdən xəbərdar olması ilə bağlı milli səviyyədə addımlar Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra atılmışdır. Milli Məclisin 1994-cü il 24 fevral tarixli qərarı ilə fevralın 26-sı Xocalı Soyqırımı Günü elan edilmiş və bu barədə beynəlxalq təşkilatlara məlumat verilmişdir.

Dövlət qurumları, xaricdə yaşayan soydaşlarımız, vətəndaş cəmiyyəti institutları, xüsusən, Heydər Əliyev Fondu Xocalı soyqırımının unudulmaması və beynəlxalq ictimaiyyət tərəfindən tanınması üçün əzmlə fəaliyyət göstərmişlər. Xocalı soyqırımının beynəlxalq səviyyədə tanıdılması məqsədilə Heydər Əliyev Fondunun dəstəyi ilə 2008-ci ildə başladılmış "Xocalıya ədalət!" maarifləndirmə kampaniyası çərçivəsində dünyanın bir çox ölkələrində Xocalı faciəsi ilə bağlı məlumatlılıq artırılmış, bir sıra tədbirlər, təqdimatlar, sərgilər keçirilmiş, kitab və məqalələr dərc edilmişdir.

Həmin kampaniya sayəsində 18 ölkənin qanunverici orqanı, ABŞ-nin 24 ştatı, həmçinin İslam Əməkdaşlıq Təşkilatı və Türk Dövlətləri Təşkilatı Xocalıda baş vermiş faciəni soyqırımı kimi tanımış və pisləmişdir. Hazırda xarici ölkələrdə Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış 10 abidə mövcuddur.

## 12 MİN NƏFƏRLİK ŞƏHƏR

Bu gün Xocalı yenidən qurulur. Artıq Xocalının gələcək inkişafı ilə bağlı Baş planı da hazırlanıb. Baş Plana əsasən, ilk mərhələdə 12 min nəfərlik şəhər planlaşdırılır. Eyni zamanda, ehtiyat üçün də ərazilər saxlanılır. Xocalı bir regional mərkəz kimi davamlı surətdə inkişaf etməlidir. Burada həm bütün zəruri sosial, inzibati xidmətlər, mədəni mühit yaradılacaq, ticarət, ictimai iaşə fəaliyyətləri üçün geniş imkanlar, təbiətlə daim təmasa imkan verən rekreasiya əraziləri demək olar ki, bütün şəhər boyu, yaşıl məkanlarla əlaqələndirilmiş komfortlu yaşayış əraziləri nəzərdə tutulub. Şəhər mühitini canlandıran yeni nəqliyyat qovşağı vacib rol oynayacaq, mobilliyi artıracaq. Bu, həmçinin şəhərdə iqtisadiyyatın, sahibkarlığın inkişafına da xüsusi təkan verəcək. Bütün bunlar dinamik inkişafı təmin edən iqtisadi şaxələndirməyə imkan verəcək.. Xocalının Baş planını hazırlayarkən ilk növbədə, onun regiondakı mövqe də nəzərə alınıb. Bura strateji mövqeyə malikdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Ən doğru seçim

## Paşinyan seçkilərdə qələbəni "kilsə üzərində tam nəzarət"lə təmin etmək istəyir

***Ermənistanda hakimiyyətlə kilsə arasındakı münasibətlər hazırda kifayət qədər gərgin bir mərhələdədir. Bu gərginlik yalnız daxili siyasətə təsir etmir, regionda geosiyasi güclər oyunları, milliyyətçilik, özünütəsdiq məsələləri və xarici təsirlər də bu münasibətlərə toxunur. Erməni Apostol Kilsəsi (EAK) Ermənistan üçün yalnız din institutu deyil, o, həm də millət, mədəniyyət və tarixi yaddaşın mühüm bir hissəsidir. Ermənistanın müasir konstitusiyasında da (XVIII maddə - "Dövlət və kilsə ayrılığı" prinsipi, XIX maddə - "Erməni Apostol Kilsəsinin milli-mənəvi rolu) xüsusi qeydlər var. Bu isə onu göstərir ki, formal olaraq Dövlət ilə Kilsə ayrılığı olsa belə (seçilib qəbul edilsə də), Kilsənin dövlətin ideoloji, mədəni və simvolik funksiyaları çərçivəsində geniş təsiri var.***

Son illərdə dövlətyönlü siyasət ilə Kilsə arasında bir neçə ciddi nöqtə üzrə mübahisə diqqət çəkir. Baş nazir Nikol Paşinyan Kilsənin iqtisadi və maliyyə şəffaflığına dair tələblər irəli sürüb. Məsələn: "Kilsənin şəffaflığı olmalıdır", deyə Paşinyan bildirib. Kilsə bəzi hallarda dövlətin xarici siyasət irəliləyişlərinə, xüsusilə Qarabağ münaqişəsinin həllinə dair yanaşmalarına kəskin fikir bildirib, məsələn, ərazi güzəştlərinə qarşı mövqe tutub. İddialara görə, bəzi kilsə-rəsmiləri dövlətə qarşı daha mühafizəkar, millətçi yönümlü olmaqla yanaşı, hakimiyyət sektorunda dəyişikliklərə qarşı çıxırlar. Bu da Paşinyanın "modernləşmə", "Avropa yönümlü" siyasəti ilə toqquşur.

Bu üç əsas xətlə - iqtisadi şəffaflıq, ideoloji mövqe və xarici siyasət Kilsə ilə dövlət arasında qarşıdurma yaratmaqdadır. Bu münasibətlər sadəcə fikir ayrılığı səviyyəsində qalmır, bəzi hallarda hüquqi addımlar, həbslər və ictimai etirazlarla müşahidə olunur. Məsələn, dövlətdən kilsəyə müdaxilə iddiaları, kilsə rəhbərliyinə qarşı tənqidi mövqelər və ya Kilsənin siyasi rolunun vurğulanması gərginliyi artırır. Deməli olar ki, vəziyyət "yüngül gərginlik" səviyyəsində deyil, dövlət və kilsə arasında qarşılıqlı etimadsızlıq, qarşıdurma meyilləri və potensial olaraq kilsənin siyasi rolunun məhdudlaşdırılması kimi elementlər var. Bu da "təhlükəli" nöqtəyə yaxınlaşan bir situasiyadır, çünki kilsənin milli kimlik və mədəniyyət mənbəyi olması baxımından hər hansı zor tətbiqi və ya siyasi manipulyasiya cəmiyyətdə böyük reaksiyalara səbəb ola bilər.

### Rusiya faktoru

Rusiya ilə Ermənistan arasında çoxşaxəli siyasi, hərbi, mədəni əlaqələr mövcuddur. Ermənistan 1990-cı illərdə SSRİ dağılandan sonra Rusiyanın təsiri altında qalmaqda davam edir. Rusiyanın tərtib etdiyi müxtəlif birliklərdə, məsələn, Müstəqil Dövlətlər Birliyi və Moskvanın hərbi alyansı olan KTMT-də təmsil olunur. Kilsə və Rusiyanın dini institutları arasında da əlaqələr var. Rusiyanın Ortodoks kilsəsi və digər strukturlarla yanaşı, Ermənistanda rus dilində, rus-İrəvanlı diaspora kanalları ilə əlaqələr qurulub. Məsələn, 2021-ci ildə Moskva şəhərində Rus Patriarxı və EAK rəhbərliyi görüşüb.

Analizlərə görə, Kilsə Ermənistanda yalnız dini və milli rol oynamır, həm də geosiyasi alət ola bilər. Xüsusilə Rusiyanın regiondakı nüfuzunun qorunmasında kilsəyə bağlı aktorlar vasitəsilə təsir kanalları qurula bilər. Məsələn, Kilsə bəzi hallarda dövlətə qarşı və ya dövlətin siyasətinə qarşı çıxan mövqe tutub - bu isə belə analiz olunur ki, Rusiya tərəfindən dəstəklənən daha mühafizəkar, "ənənəvi dəyərlər", "Rusiya ilə yaxınlıq" yönümlü qüvvələrin təmsili ola bilər. Dövlət daxilində Kilsənin rolunun məhdudlaşdırılması və onun maliyyə şəffaflığına dair tələblər isə, əksinə, dövlətin Rusiyanın təsirini azaltmaq üçün atdığı addımlar kimi qiymətləndirilir.



### Hazırkı vəziyyət və Rusiya üçün risklər

Rusiya Ermənistanı öz strateji "arxa bağçası" kimi görürdü. Lakin son dövrlərdə Ermənistanın hərbi və təhlükəsizlik sahəsində Rusiyaya olan asılılığı şübhə altına alınıb, rəhbərlik bu asılılığı "strateji səhv" adlandırıb. Dövlət Kilsə üzərindən geosiyasi manevrlər aparır. Bəzi analitiklərə görə, bu Rusiyanın regional təsirinin azaldılması ilə bağlıdır. Rusiya isə bu prosesi "regional sabitliyin pozulması" kimi qiymətləndirə bilər və Ermənistanın Rusiyadan uzaqlaşması strateji itkidir. Beləliklə, Rusiya-Ermənistan kilsə-dövlət münasibətlərində Rusiya həm formal tərəfdaş, həm dayaq mənbəyi, həm də geosiyasi rəqib rolunu oynamaqdadır.

Nəticədə gərginlik səviyyəsi, təhlükələr və perspektivlər məsələnin həllini çətinləşdirir, daha doğrusu Ermənistanı Rusiyadan uzaqlaşdırır. Mübahisələr artıq ideoloji və simvolik səviyyədən çıxaraq konkret hüquqi, maliyyə və siyasi addımlara çevrilib. Kilsənin maliyyə şəffaflığı, kilsə-dövlət sərhədləri, kilsənin xarici siyasətdə mövqeyi kimi məsələlər hələ də həll olunmamış qalır. Kilsə həm millətçi yönümlü, həm də Rusiyaya yaxınlıqda duran qüvvələr tərəfindən təmsil olunduğu üçün bu qarşıdurma yalnız daxili yox, həm də xarici siyasət kontekstində baş verir. Hazırda bu münasibətlər "təhlükəli" sayılacaq səviyyəyə yaxınlaşır, çünki, kilsənin siyasi təsirinin məhdudlaşdırılması, dövlətin kilsəyə qarşı güc istifadəsinə dair addımlar, Rusiyanın qorxu və narahatlıq ifadələri, bütün bunlar qırılma nöqtəsinə işarə edir.

Kilsə xalqın milli yaddaşında mühüm yer tutur, onunla münasibətin kəskinləşməsi sosial parçalanmaya yol aça bilər. Xarici siyasətdə itirilən balans, o cümlədən Kilsənin Rusiyaya yaxınlığı və dövlətin Rusiyadan uzaqlaşması arasında gərginlik, Ermənistanın həm Rusiyadan, həm Qərbdən olan təzyiqlərlə üz-üzə qalmasına səbəb ola bilər. Rusiya-Ermənistan münasibətlərində gərginlik artarsa, Ermənistan üçün təhlükəsizlik və hərbi risklər yaranar. Çünki uzun müddət Rusiyanın təhlükəsizlik çətiri altında olub. Daxili sabitlik baxımından problemlər yaşanır ki, Kilsə və mühafizəkar qüvvələr dövlətin xarici yönümlü siyasətinə, daxili sabitliyi pozan etirazlara gətirib çıxara bilər.

Ermənistanda hakimiyyət-kilsə münasibətləri hal-hazırda yüksək səviyyədə gərgindir və müxtəlif risklər daşıyır. Bu, sadəcə daxili siyasət məsələsi deyil, milli kimliyi, regional təhlükəsizlik, geosiyasi yönümlər və Rusiyanın bölgədəki təsiri ilə sıx bağlıdır. Rusiyanın rolu həm bir dayaq, həm bir manipulyasiya aləti, həm də potensial təzyiq mənbəyi olaraq görünür.



### Katolikos söz verir

Ermənistanın baş naziri Nikol Paşinyan Erməni Apostol Kilsəsinin (EAK) bəzi binalarını ələ keçirmək niyyətində olduğunu açıqlayıb. O, iddia etdi ki, orada oğrular və yalançı şahidlər işləyir və dindar bir xristian olaraq buna baxıb dayana bilməz. Buna görə də dövlətə məxsus kilsələrdə xidmətlər davam edəcək, lakin onlar Allahın layiqli qulları hesab etdiyi şəxslər tərəfindən aparılacaq. Parlamentdə çıxış edən Paşinyan bəyan edib ki, Ermənistanda mənəvi həyat sürmək mümkün deyil, çünki II Qarekin və ona sadiq ruhanilər buna mane olurlar. "Bir tərəfdən biz dəyərlərə əsaslanan cəmiyyətin olması zərurətindən danışırıq və bu, danılmazdır. Digər tərəfdən, sual budur ki, cəmiyyətin dəyərlərinin episentri özü çirkləndiyi zaman buna necə nail olmaq olar", - baş nazir parlamentdə çıxış edərkən deyib.

Bununla belə, Paşinyan çıxış yolunu tapıb. Onun sözlərinə görə, bir çox kilsələr Ermənistan hökumətinin kitablarındadır, ona görə də onları Erməni Apostol Kilsəsinin əlindən almaq olar. "Mən inanıram ki, mənəvi həyatın yox, intriqaların, manipulyasiyaların və saxta xəbərlər qruplarının olduğu yerdə bu kilsələri cəmiyyətə qaytarmaq üçün hər cür mənəvi və hüquqi əsasımız var və ola bilərik", - Paşinyan vurğulayıb.

Qeyd edək ki, Ermənistanın baş naziri ən azı may ayından bu ideya üzərində işləyir. Onun korrupsiyaya qarşı mübarizə və din xadimləri arasında dürüstlük uğrunda mübarizə ilə başlayan və indi ən yüksək kilsə rəhbərliyinin iştirakı ilə hökumət əleyhinə sui-qəsdin üzə çıxarılması prosesində olan kilsə əleyhinə kampaniyası bu qədər davam etdi. Paşinyanın sözlərinə görə, son damla ən qədim və ən hörmətli monastırlardan biri olan Ovannavankın abbatı Aram Asatryanın fəaliyyətinin dondurulması olub. Nəhayət, baş nazir qərara gəlib ki, Asatryan kimi keşişlər Erməni Apostol Kilsəsindən ələ keçirilən kilsələrdə xidmətini davam etdirsinlər. O, həmçinin inanırdı ki, II Qaregin heç kimi hansısa qanunsuzluqda ittiham edə bilməz, çünki özü də çoxdan subaylıq andını pozmuşdu. Niyyətini təsdiqləmək üçün Paşinyan gələn bazar günü Asatryanın rəhbərlik etdiyi kilsə mərasimində iştirak edəcəyinə söz verib. Onun Hovhannavankda keçirilməsi planlaşdırılır.

Bu arada Ermənistan parlamentinin sədri Alen Simonyan II Qaregin adlı katolikosu tanımadığını bildirib. "Ktriç Nersisyan başa düşməlidir ki, bizi uçurumun kənarına itələməyə ehtiyac yoxdur... O, onsuz da gedəcək", - Simonyan bildirib. O, bazar günü liturgiyasında da iştirak etmək niyyətindədir. Hakim "Mülki müqavilə" partiyasından olan deputat Vaaqn Aleksanyan hətta Erməni Apostol Kilsəsinin indiki rəhbərliyini keçmiş prezident Robert Köçəryanın "seçki qərargahı" adlandırıb. "Möminin Ktriç Nersisyanla nə əlaqəsi var? O, katolikos deyil, ona görə də onu çıxarmaq lazım deyil. O, Müqəddəs Taxt-tacda olan Ktriç Nersisyandır. Allahın izni ilə o, özü ordan gedəcək. Artıq Müqəddəs Taxt-tacdan uzaqlaşdırılıb. Aram Asatryanın defrokasiyası məhz bunu nümayiş etdirir. Hazırda Eçmiədzin Köçəryanın tərəfdarlarının hücumu altındadır", - deputat əlavə edib.

Öz növbəsində II Karekin istənilən təzyiqə müqavimət göstərməyə hazır olduğunu bəyan edib. O, hətta həbsxanadan belə kilsəyə rəhbərlik etməyə hazır olduğunu söyləyib. Xatırladaq ki, Proşyandan başqa arxiyepiskoplar Baqrat Qalstanyan və Mikael Ajapaxyan da həbs edilib. Birincini dövlət çevrilişi təşkil etdiyinə görə 15 ilə qədər həbs cəzası gözləyir, ikincisi isə artıq üsyana təhrik ittihamı ilə iki il müddətinə azadlıqdan məhrum edilib. Bundan başqa, İstintaq Komitəsi arxiyepiskop Natan Hovhannisyanı etiraz aksiyalarında iştirak etməyə məcbur etdiyinə görə katolikosdan şikayət edən keçmiş keşiş Aqan Yernjakyanla söhbətinin səs yazısı ilə bağlı dindirməyə çağırıb. Lakin Hovhannisyan səs yazısının qanunsuz aparıldığını əsas gətirərək ifadə verməkdən imtina edib.

Paşinyanın katolikosla qarşı-qarşıya gətirən məqamlar az deyil. Onun əsl məqsədi kilsədə parçalanma yaratmaqdır. Hökumət başçısı EAK-ı Azərbaycanla qurmaq istədiyi sülhə təhlükə kimi görür. Ona görə də onu parçalamaq qərarına gəlib. Paşinyan hazırda yeni təşkilata rəhbərlik edə biləcək adamlar axtarır. Məsələn, o, İstanbulun Ekumenik Patriarxı Varfolomey və Kilikiya Böyük Evinin katolikosu Livan I Aramla danışıqlar aparır. Əməliyyatın uğuru Paşinyanın nə qədər hakimiyyətdə qalmasından asılı olacaq. Əgər gələn il keçiriləcək parlament seçkilərində Vətəndaş Müqaviləsi partiyası uduzsa, parçalanma cəhdi tezliklə unudulacaq, amma qalib gəlsə, EAK ən çətin dövrlərlə üzləşəcək.

**V.VƏLİYEV**

# Ailədə hər uşağa münasibət eynidirmi?

***Hər ailə uşaqlarını sevir və onların xoşbəxt, uğurlu fərdlər kimi böyüməsini arzulayır. Amma bəzən valideynlər fərqinə varmadan qız və oğlan uşaqlarına fərqli münasibət göstərirlər. Bu fərq geyimdən, davranış qaydalarından, təhsilə və azadlığa yanaşmadan belə hiss olunur. Əslində, uşaqlar arasında bərabərlik təkcə maddi imkanlarda deyil, sevgidə, diqqətdə və gözləntilərdə də olmalıdır. SİA mövzu ilə bağlı araşdırma aparıb.***



## Dünyada vəziyyət

Dünyanın bir çox ölkəsində bu məsələ uzun illərdir müzakirə olunur. Qərb ölkələrində gender bərabərliyi prinsipləri təhsildən ailə tərbiyəsinə qədər geniş tətbiq olunur. Qız və oğlan uşaqlarına eyni imkanların verilməsi əsas məqsəd sayılır. Asiya və Yaxın Şərq ölkələrində isə ənənəvi düşüncə tərzi hələ də üstünlük təşkil edir. Burada oğlan uşaqları çox vaxt ailənin dayağı kimi görülür, qızlar isə daha çox qorunmalı, sakit və itaətkar olmalı varlıqlar kimi yetişdirilir.

Skandinaviya ölkələri (İsveç, Norveç, Finlandiya) bu sahədə ən ədalətli sistemlərə malikdir. Məsələn, valideyn məzuniyyətləri həm ana, həm də ataya bərabər şəkildə verilir ki, uşaqlara baxımda cins fərqi yaranmasın. Sosioloqların fikrincə, uşaqlara cinsinə görə fərqli münasibət göstərmək onların gələcək özünəinamına, şəxsi azadlığına və ictimai davranışına birbaşa təsir edir.







Azərbaycanda vəziyyət

Azərbaycanda ailə dəyərləri çox güclüdür, lakin bəzi hallarda qız və oğlan uşaqlarına münasibətdə fərqlər hiss olunur. Oğlan uşaqları adətən "ailənin gələcəyi" kimi görülür, onlardan məsuliyyətli, güclü, qoruyucu olmaları gözlənilir. Qız uşaqları isə çox vaxt daha sakit, mehriban, ailəcanlı olmağa yönləndirilir. Ev işlərinə, geyim seçiminə, dost çevrəsinə və azad hərəkətlərə yanaşmada qızlara qarşı daha çox məhdudiyyət qoyulur.

Psixoloqların fikrincə, bu fərqlər sevgi və diqqət baxımından uşaqlar arasında bərabərsizliyə səbəb ola bilər. Məsələn, oğlan uşağı "sərt olmalıdır" deyə duyğularını gizlətməyə öyrəşir, qız uşağı isə "ayıb olar" düşüncəsi ilə öz fikrini açıq ifadə etməkdən çəkinir. Bu, böyüdükcə uşaqların emosional inkişafına, özünə dəyər hissinə və ailədaxili münasibətlərə təsir göstərir.

## Nə üçün eyni münasibət vacibdir?

Hər uşaq fərqlidir, amma sevgidə və qayğıda fərq olmamalıdır. Qız və oğlan uşaqları eyni dərəcədə maddi və mənəvi dəstəyə ehtiyac duyur. Bərabər münasibət uşaqlarda özünə inam, hörmət və tolerantlıq formalaşdırır. Valideynlərin "biri üstün, biri zəif" yanaşması gələcəkdə qardaş-bacı münasibətlərində gərginlik yarada bilər.

Ailədə bərabər münasibət sadəcə ədalət məsələsi deyil - bu, uşağın şəxsiyyətinin formalaşmasına təsir edən əsas amildir. Qız və oğlan uşaqlarını eyni sevgi, diqqət və hörmətlə böyütmək gələcəyin daha sağlam, düşüncəli və bərabərlik dəyərlərinə açıq cəmiyyətinin təməlidir.

***Ayşən Vəli***

## FELYETON



# "Müasir" Ana dili

Universitetlərdən birinin Votsapda müəllim-tələbə qrupu:

-Salam, gənclər.
-Slm mlm
- Semestr imtahanına hazırlıq necə gedir?
-Oxurq mlm
- Bəs dediyim ədəbiyyatları tapa bilmisiniz?
-Mlm uşqlar tapb atb
- Nə çətinliyiniz olsa, bura yazın.
-Sağlun mlm allah razı olsn.

İki rəfiqənin yazışmasından:

-Slm ngar
-Slm cnm
-Necsn
-Yahşı sen
-Supr
-Neçde çıxn
-11de
-Mtrda görşek
-Tmm

İki tələbə yoldaşının yazışmasından:

-Bacişko yaza bildn
-Yazdmda bele bezdm ölrem
-Sen
-Verqlern hamsin doldurmsam
-Şkr imtlar qutrdı canmız qutrdı
-Saba çxrıq şehre
-he he
-Sahat neçde
-12de görşek
-Sosda
-He orda

Ana-qız yazışmasından:

-Qızım, hardasan?
-Unide
-Yubanma, tez gəl.
-Nolubki
-Nə olacaq ki, deyirəm yubanma.
-İndi cxwam gelrem mende direm nolub
-Gələndə çörək al.
-Pulm qalmybe
-Yaxşı, çıx gəl.
-Tmm cnm

***Mətanət Məmmədova***

# Mütaliəni vərdişə necə çevirməli?




Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması "istiqaməti çərçivəsində hazırlanıb*





***Mədəniyyət səviyyəsini artırmağın ən vacib yolu kitab oxumaq alışqanlığına sahib olmaqdır. Oxumağı sevən hər insan aylıq, illik kitab mütaliə hədəfi qoyur və buna nail olur. Oxumağı vərdiş halına gətirmək bu baxımdan çox vacibdir. Bəs oxumaq vərdişi nədir və onu necə inkişaf etdirmək olar?***







Oxumağı həyat fəlsəfəsinə çevirmək oxuma vərdişini inkişaf etdirmək deməkdir. Oxuma vərdişinin əsas xüsusiyyəti, insanların oxumağı zövq mənbəyi kimi görməsi və bu vərdişi həyatları boyu davam etdirməsidir. Oxumaq həvəsi alışqanlığa çevrildikcə, insanlar oxumağı bir məşğuliyyət, həvəs kimi deyil, ömürlük vərdiş və durmadan öyrənmək kimi qəbul edirlər. Oxuma vərdişini inkişaf etdirənlər informasiyanı, biliyi, məlumatı yalnız kitablardan deyil, həm də jurnallar, qəzetlər, onlayn mənbələrdən və məqalələrdən əldə edirlər. Yəni, onlar üçün mənbə, vasitə əsas deyil, oxuduqları, mütaliə etdikləri və mənimsəikləri informasiya əhəmiyyətlidir.

Nizam-intizam bir alışqanlığın vərdişə çevrilməsi üçün əsas meyardır, bütün intizamlı adamların davam etdirdikləri bir vərdişi olur mütləq. Müəyyən edilmiş bir vaxtda və mütəmadi yerinə yetirilən davranış zamanla vərdiş olur. Vərdiş həm də diqqəti artırır. Bundan əlavə, oxuduqlarınız üzərində düşünmək və mühakimə bacarığı vərdişləri inkişaf etdirməyin əsas aspektidir.

Xüsusilə yazılı nəşrləri oxumaq vərdişi insanın zehni, idrak və sosial inkişafına çox faydalıdır. Oxumaq şəxsi inkişafın əsas elementidir. Oxumaq lüğət ehtiyatını, danışıq qabiliyyətini, söz bazasını artırırvə daha geniş mədəni biliklərə yiyələnməyə kömək edir. Mütaliə empatiya və tolerantlığı inkişaf etdirir. Oxumaq yeni mədəniyyətləri araşdırmaq, başqa insanların, xalqların həyat tərzləri haqqında məlumat əldə etmək üçün imkanlar yaradır. Bu, həmçinin insanın problem həll etmə və tənqidi düşüncə bacarıqlarını artırır. Bundan əlavə, oxumaq yaradıcı düşüncə və təxəyyülü inkişaf etdirir. Müntəzəm olaraq oxuyan insan ətrafındakılarla daha yaxşı ünsiyyət bacarıqları qazanır. Mütaliə vərdişi zamanla idrakı artırır və diqqəti inkişaf etdirir.

Mütaliə insanın sosial çevrəsi ilə daha yaxşı dil tapması, şəxsi həyatını zənginləşdirməsi üçün olduqca faydalıdır. Oxumağı vərdişə çevirmək üçün əvvəlcə qarşıya məqsəd qoymaq lazımdır. Ayda və ya ildə müəyyən sayda kitab oxumaq məqsədi daha çox kitab oxumağa səbəb ola bilər. Məsələn, ildə 24 kitab və ya ayda 2 kitab oxumaq məqsədi qoymaq vərdiş yaratmağı asanlaşdırır. Kitab sayı əvəzinə səhifə sayını təyin etmək də mümkündür.

Kitabların sayını müəyyən etdikdən sonra kitab siyahısı yaratmaq da vərdişə yiyələnməyə kömək edəcək. Bəyəndiyiniz janrlarda kitablar seçmək vacibdir. Oxumaq istədiyiniz kitabları seçmək və onları aylara görə sıralamaq oxumağı vərdişə çevirməyə kömək edir. Oxuyacağınız kitablar siyahısındakı hər bir kitaba başlama və bitmə tarixlərini təyin etmək və müəyyən qeydlər aparmaq oxuma sürətinizi artıra bilər.

Vərdiş yaratmağın başqa bir yolu gündəlik ən azı 10-20 səhifə oxumağı qarşıya hədəf qoymaqdır. Gündəlik məqsəd aylıq hədəflərə çatmaq üçün çox vacibdir. Hər gün oxumaq vərdişin yaranmasına kömək edir. Həvəsləndirici vasitələr yaradın, evinizdə mütaliə guşəsi yaratmaq, rahat bir kreslo və ya divan qoymaq, xoş qoxulu ətir yayan əşyalardan istifadə etmək oxumağa həvəs yarada bilər. Bundan əlavə, elektron kitab oxuyuculardan və müxtəlif onlayn vasitələrdən istifadə də vərdişi inkişaf etdirməyə kömək edə bilər. Bu mərhələdə hansı vasitələrin sizin üçün uyğun və faydalı olduğunu müəyyən etmək vacibdir.



Oxumağa həvəslənmək həmişə asan olmur. Belə hallarda özünüzə mütaliə partnyoru tapa bilərsiniz. Partnyor tapmaq oxumağı vərdiş halına gətirməkdə sizə kömək edər, onunla birlikdə hədəf seçmək, kitablar haqqında söhbət etmək faydalı olacaq. Yeni kitabları və janrları mütaıiə partnyorunuzla müzakirə etmək də sizə zövq verəcək. Oxumağı ömürlük və davamlı bir vərdişə çevirmək üçün mütaliəni sevmək lazımdır.

**Lalə Mehralı**

SON SƏHİFƏ

SƏS

25 oktyabr
2025-ci il

"SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Toylarda verilən daha riskli qidalar BƏLLİ OLDU

*Mütəxəssis mühüm məqamlara aydınlıq gətirdi*





Toy mərasimləri Azərbaycan mədəniyyətinin ən önəmli və rəngarəng tədbirlərindən biridir. Belə mərasimlərdə qonaqlara müxtəlif və bol süfrə təamları təqdim olunur. Lakin bu cür kütləvi tədbirlərdə hazırlanan və paylaşılan qidalar bəzən sağlamlıq üçün müəyyən risklər daşıya bilər. Xüsusilə, düzgün saxlanmayan, gigiyena qaydalarına əməl edilmədən bişirilən və ya uzun müddət açıq havada qalan yeməklər qida zəhərlənməsinə səbəb ola bilər. Buna görə də toy süfrələrində verilən bəzi məhsulların digərlərinə nisbətən daha riskli olması məsələsi xüsusi diqqət tələb edir. Maraqlıdır, toylarda verilən hansı qidalar daha çox risk daşıyır? Bu cür məclislərdə nələrə diqqət etmək lazımdır?

Məsələ ilə bağlı sağlam qidalanma üzrə mütəxəssis Məhsəti Hüseynova SİA-ya açıqlamasında bildirib ki, çox miqdarda qida hazırlanır və xüsusilə də temperatur rejiminin yüksək olduğu bir vaxta soyuducuda saxlanılmalı olan yüksək risk qrupuna aid qidalar açıq hava şəraitində saxlanılır.

Onun sözlərinə görə, bu da onların tərkibinin pozulmasına, kimyəvi və bioloji dəyişikliyə, son nəticədə zəhərlənməyə səbəb olur: "Yüksək risk qrupundan olan qidalara nümunə olaraq birinci növbədə mayonezli salatları göstərmək lazımdır. Çünki onlarda bişirilmiş tərəvəzlər, eyni zamanda zülal tərkibli ət və mayonezdən istifadə olunur ki, bu qidalar da uzun saat əvvəldən hazırlandığı üçün açıq havada qaldıqda insan orqanizmində bir çox fəsadlara gətirib çıxarır. Bu kimi qidalardan istifadə yay mövsümündə mümkün qədər azaldılmalıdır. Belə qidaların soyuq temperaturda saxlanılması və artıq süfrəyə verildiyi an qarışdırılması tövsiyə olunur. Bəzən məclislərdə bir neçə saat əvvəldən qidalar hazır vəziyyətdə masalara düzülür. Bu da onların uzun müddət qalıb xarab olmasına gətirib çıxarır. Bəzən də mayonez açıq temperaturda qaldıqda, keyfiyyəti aşağı düşür və insan orqanizmdə zəhərlənməyə səbəb olur. Mayonezlərin üzərində bəzən 3-6 ay ərzində istifadə olunması göstərilsə də, məclislərdə böyük çəkilərdə olan qablaşdırmadan istifadə olunur. Onlardan da qapağı açıldıqdan sonra uzun müddət istifadə edirlər. Müddəti keçmiş məhsulların istifadə olunması riskləri də artırır. Bir çox qarışıq yeməklərin qəbulu həzm prosesinin çətinləşməsinə və sağlamlıq problemlərinə yol açır. Bu səbəbdən yaxşı olar ki, qızartma yeməklərdən çox istifadə olunmasın. Bir neçə çeşid ətdən istifadə etdikdə, bu, insan orqanizmdə həzm probleminə, maddələr mübadiləsinin aşağı düşməsinə səbəb olur. Yağda qızardılan yeməklər, qovurmalar, qızartmalar öncədən hazırlandığı üçün köhnə yeməklər siyahısındadır. İmmun sistemi zəif olan, xroniki xəstə, azyaşlılarda, həssas qrupa aid olanlarda və eyni zamanda da yuxarı yaşlı insanlarda sağlamlıq problemləri yarada bilər.

Qidalarla birlikdə qazlı, rəngli içkilərdən istifadə vəziyyəti daha da ağırlaşdırır. Çünki həmin qidaların tərkibindəki kimyəvi qatqılar insan orqanizmində zəhərlənməyə və bir çox problemlərin yaranmasına gətirib çıxarır. Ona görə əksər hallarda insanlar toy məclislərindən sonra mədədə ağırlıq, şişkinlik, hətta bir neçə gün sonra baş ağrısı, qarın nahiyəsində ağrılardan şikayət edirlər. Bu da qidalanma rejiminin pozulması deməkdir. Köhnə qidaların qəbulu və yaxud da təzə qidalardırsa, düzgün şəkildə saxlanılmaması, tərkibinin pozulması, xarab olması belə hallar yaradır".

***A. Qurbanlı***

# Hansı hallarda aliment verilməyə bilər?

## *HÜQUQŞÜNAS AÇIQLADI*





Cəmiyyətdə ailə institutunun möhkəmləndirilməsi və uşaqların sosial müdafiəsinin təmin edilməsi dövlətin əsas vəzifələrindən biridir. Hər bir uşağın sağlam böyüməsi, təhsil alması və layiqli şəraitdə yaşaması üçün valideynlərin bərabər məsuliyyət daşıması vacibdir. Lakin bəzi hallarda valideynlər birlikdə yaşamadıqları və ya nikah münasibətləri pozulduğu üçün uşağın saxlanması ilə bağlı vəzifələrin icrası çətinləşir. Belə vəziyyətlərdə uşağın maraqlarının qorunması məqsədilə qanunvericilikdə aliment anlayışı nəzərdə tutulur.

Aliment - uşağın gündəlik ehtiyaclarının ödənilməsi üçün valideynlərdən birinin digərinə mütəmadi şəkildə ödədiyi maddi yardımdır. Bu ödəniş uşağın sosial rifahını qorumağa, onun sağlam inkişafını təmin etməyə yönəlmişdir. Alimentin ödənilməsi və dayandırılması hallarına dair qaydalar Azərbaycan Respublikasının Ailə Məcəlləsində aydın şəkildə müəyyən olunmuşdur. Bəs, hansı hallarda aliment verilməyə bilər?

Məsələ ilə bağlı hüquqşünas Tural Həsənli SİA-ya açıqlamasında bildirib ki, yetkinlik yaşına çatmayan uşağa görə verilən aliment - uşağın saxlanması üçün valideynlərdən birinin digərinə məhkəmə qərarı və ya tərəflərin qarşılıqlı razılığı əsasında ödədiyi məbləğdir. Onun sözlərinə görə, aliment uşağın yaşayış xərclərini, təhsil, sağlamlıq, geyim, qida və digər əsas ehtiyaclarını qarşılamaq məqsədi daşıyır: "Uşaq yetkinlik yaşına çatdıqda - yəni uşaq 18 yaşını tamam etdikdə, o artıq hüquq baxımından müstəqil hesab olunur və onun üçün aliment ödənilməsinə ehtiyac qalmır. Aliment verən şəxs vəfat etdikdə - yəni uşağa aliment ödəyən valideyn dünyasını dəyişərsə, aliment ödənişi avtomatik olaraq dayandırılır. Uşaq övladlığa götürüldükdə - əgər uşağı başqa şəxs və ya ailə övladlığa götürürsə, həmin andan etibarən bioloji valideynin aliment ödəmə öhdəliyi aradan qalxır, çünki övladlığa götürən şəxslər uşağın tam qanuni valideynləri hesab olunur".

***Arzu***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**